In February 1994, he was appointed as the head of department of the Executive Apparatus of the President by Heydar Aliyev, the President of the Republic of Azerbaijan, and soon after, the head of the Executive Apparatus (currently, the Presidential Administration) in February 1995.

In the context of the universal moral values in the contemporary period, Ramiz Mehdiyev has authored almost hundreds of scholarly articles, including several monographs, and research works dedicated to the current problems of the relations between nations; the exploration of ways to solve these problems in accordance with the objective laws governing the development of society; the elimination of dogmas and stereotypes rooted in the views of nations and interethnic relations; the analysis of social political life during the independence years; as well as, the national ideology; state building, and etc. He had indispensable role in the preparation and issuing of the voluminous publications and several articles of state significance of the national leader Heydar Aliyev and the current President Ilham Aliyev.

Ramiz Mehdiyev is the author of many scientific works and articles published in Azerbaijan and abroad, devoted to the globalization, democratic transformations, the national elite, and national identification issues. His writings treat, in particular, the global problems of the contemporary world; the theoretical basis of Azerbaijan's integration to the globalizing world and its modernization in the context of the national moral values; the nature of democratic transformations specific to the developed postindustrial societies of the Western world; as well as, the Armenian aggression and its tragic consequences that had a grief impact on the development history of Azerbaijan.

During the years of 1980-1990, he was a member of the Azerbaijani SSR Supreme Soviet, and later, in 1995-2000, the

member of the Milli Mejlis of the Republic of Azerbaijan. He was awarded with "Istiglal" Order (2008), Order of Honor (2013), the "Red Labor Banner" Order (two times – 1980 and 1986), and the "Drujba" Order of the Russian Federation (2008) and Commemorative Medal of the Polish National Security Bureau (2011). In April 2001, Ramiz Mehdiyev was elected as a member to the New York Academy of Sciences, and in April 2007, he became an academician of the Azerbaijani National Academy of Sciences.

He is married, has a son and a daughter. His wife is a doctor of sciences, and the head of chair at the Baku State University.

# AKADEMİK RAMİZ MEHDİYEVİN ELMİ-NƏZƏRİ ARAŞDIRMALARINDAN

Heydər Əliyevin siyasi taleyinin mahiyyətini dərk etmək üçün müxtəlif hadisələrin fəlsəfi məğzini araşdırmaq və onun həyata keçirdiyi möhtəşəm planların izahı üçün açar olan ideyalarını başa düşmək lazımdır!

***

Heydər Əliyev iki əsrin ayrıcında öz ölkəsinin dövlət adlı gəmisini qlobal sarsıntılar dövrünün fırtınalarından sağ-salamat və uğurla keçirərək, ölkənin milli dəyərlərinin, insanların mənəvi sağlamlığının, özünə inamının qorunub saxlanılmasına müvəffəq olmuşdur.

***

Heydər Əliyev Azərbaycan tarixində ilk dəfə siyasətdə və dövlət idarəçiliyində səviyyəsizliyə və bəsitliyə son qoya bilmişdir.

***

İlham Əliyev istedadlı şagird olub və öz müəllimindən, uzaqgörən dövlət xadimi, xarakterində milli ideyalar və prinsiplərə möhkəm sadiqlik, bəsirət kimi keyfiyyətlərin nadir şəkildə birləşdiyi Heydər Əliyevdən çox mühüm dərs almışdır.

***

Bu gün Heydər Əliyev fenomenindən çox yazırlar. Bu məqalə, kitabça və əsərlərin müəllifləri onun – ölkəmizin tarixində bütöv bir dövrü təcəssüm etdirən əsl vətəndaşın, böyük Şəxsiyyətin və qüdrətli Liderin, İnsanın müxtəlif cəhətlərini açıqlayırlar. Lakin onların hamısının yekdil rəyi belədir ki, Heydər Əliyev Azərbaycan xalqının milli sərvəti, onun bəxtinə düşmüş Tanrı payıdır.

***

Heydər Əliyev Azərbaycanda yaradıcı adamlar üçün elə bir şərait yaratmışdır ki, bu, sərbəst düşünməyə və milli-mənəvi ideallarn bərqərar edilməsinə doğru aparan yolları axtarmağa imkan verirdi.

***

Milli oyanış problemləri Heydər Əliyevin fəlsəfi konsepsiyasının həyata keçirilməsinə bu və ya digər formada təkan verən problemlər idi.

***

Heydər Əliyevin Azərbaycan mədəniyyəti qarşısında ən misilsiz xidmətlərindən biri Sibir düşərgələrində həlak olan filosof-şair Hüseyn Cavidin cənazəsinin qalıqlarının 1982-ci ildə Bakıya gətirilməsi və Naxçıvanda doğma torpağa tapşırılması olmuşdur.

***

Heydər Əliyev ideyalarının bayraqdarları siyasətçilər yox, şairlər olmuşdur. Bunu yadda saxlayaq. Bu, ədəbiyyatın dərsinin vətəndaşlıq dərsinə çevirdiyi haldır.

***

Heydər Əliyev öz xalqının taleyində müstəsna rol oynayan, Vətənin ağır günündə onun imdadına yetişən, müqəddəs xilaskarlıq və quruculuq missiyasını üzərinə götürərək çətin və keşməkeşli mücadiləsini qələbə ilə başa vuran siyasət dahilərindən biridir. Bu böyük şəxsiyyətin adı Azərbaycan tarixinə, xalqımızın yaddaşına haqlı olaraq, milli xilaskar kimi əbədi həkk olunmuşdur.

***

Əgər XX əsr Azərbaycan dövlətinin və xalqının tarixində müstəqilliyin qazanılması ilə yaddaşlarda qalacaqsa, XXI əsr həmin müstəqilliyin möhkəmlənməsi, strukturlaşması və dönməz

xarakter alması ilə əlamətdar olacaqdır. Nüfuzlu beynəlxalq ekstremistlərin etiraf etdiyi əsl reallıq ondan ibarətdir ki, yeni minilliyə Azərbaycan hüquqi, sivil dövlət, vətəndaş cəmiyyəti quran ölkə kimi daxil olmuşdur...

Hazırda həyata keçirilən siyasi və iqtisadi islahatlar bir qədər başqa çalar alır. Bu, ölkənin inkişafında artıq yeni mərhələ olacaqdır. Deməli, iqtisadi islahatların ünvanı da yeni məna kəsb edir və onların məqsədi postsənaye cəmiyyətinin səciyyəvi cəhətlərini tam şəkildə mənimsəməkdən ibarətdir. Bununla bərabər, siyasi və iqtisadi islahatlar paralel şəkildə həyata keçiriləcək, çünki növbəti illər üçün əsas vəzifə Azərbaycan cəmiyyətinin demokratik konsolidasiyasıdır.

***

Bu gün ölkədə yaranmış ictimai-siyasi və mənəvi mühit bizə ictimai elmlərin yeni şəraitdəki rolunu dəqiqliklə müəyyənləşdirməyə imkan verir. Sürətli sosial-iqtisadi inkişaf, öz növbəsində, ictimai elmlər qarşısında yeni vəzifələr irəli sürür, ictimai elmlər üzrə çalışan alimlərin məsuliyyətini nəzərə çarpacaq dərəcədə artırır, bu sahədə verilən bütün fikir və təkliflərə tam ciddiyyətlə, özünütənqid ruhunda yanaşaraq, onları diqqətə almağı və lazımınca qiymətləndirməyi tələb edir. Əlbəttə, ictimai elmlər sahəsində müəyyən nailiyyətlər qazanıldığını inkar etmək olmaz. Lakin alimlərimiz öz qüvvələrini bu günün ən aktual problemlərinin həllinə yönəltməlidirlər.

***

Bu gün mənim üçün ən başlıcası dövlətçiliyimizi və milli istiqlaliyyətimizi möhkəmləndirmək işinə xidmət etməkdir.

***

XXI əsrin milli dövlətçiliyindən danışarkən dərk etmək lazımdır ki, bu, qarşılıqlı surətdə bir-biri ilə bağlı olan bir neçə amilin – milli mənafenin və ümumbəşəri humanist dəyərlərin təcəssümüdür...

***

Milli dövlətçilik vahid məqsəd uğrunda – dövləti möhkəmləndirmək, iqtisadiyyatı modernləşdirmək və gələcək nəsillər üçün daha mükəmməl şərait yaratmaq naminə bütün millətin, bütün cəmiyyətin birliyinin rəmzidir.

***

Əgər xalq istəmirsə, heç bir xarici qüvvə kimisə önə çəkə bilməz və çəksə də onun nəticəsi olmayacaq.

***

"Milli ideya" xalqı və hakimiyyəti birləşdirən bir zəmindir və müstəqil yaşamaq hüququ əldə edən Azərbaycan öz tarixi ənənələrini yeni demokratik dövlət təsisatları ilə üzvü şəkildə əlaqələndirməyi bacarmalıdır.

***

İki qitənin qovuşuğunda yerləşən Azərbaycan Avropa ilə Asiyanı əlaqələndirən, onların nəinki mədəniyyətlərini və siviliyasiyalarını, həm də əsas iqtisadiyyatlarını birləşdirə biləcək körpü rolunu oynayır.

***

Məhz iqtisadi modernləşmə, bazarın sabitliyi, bank mühitinin təkmilləşməsi, orta sinfin formalaşması və ölkənin ÜDM-ində özəl sahibkarlığın rolunun güclənməsi ictimai şüuru latent şəkildə təzələyəcək, onu yeni demokratik ənənələr və təsisatlar müstəvisinə yönəldəcəkdir.

***

İndi Azərbaycanda məqsədyönlü və planauyğun şəkildə vətəndaş cəmiyyətinin təməli qoyulur. Konsolidasiya olunmuş demokratiyaya qarşısındakı tranzitin mahiyyəti məhz bundan ibarətdir.

***

İqtisadi artım və cəmiyyətin demokratikləşməsi siyasətimizin əsas elementlərindəndir və biri digərsiz mümkün ola bilməz. İqtisadi cəhətdən güclü ola bilərsən, amma demokratiya yoxdursa, insan hüquqları qorunmursa, uğur qazana bilməzsən.

***

Ölkəmiz demokratiya xəttinə və inkişafa sadiqlik mövqelərində möhkəm dayanır və çətinliklərə, gözlənilməz hadisələrə baxmayaraq, biz Azərbaycan sosiumunun inkişafının üç əsas amilini – milli birlik və siyasi suverenliyi, iqtisadi firavanlığı, mənəvi vəhdətin və bizi birləşdirən mənəvi dəyərlərin bütövlüyünü təmin etmək üçün ölkəni zəruri inkişaf səviyyəsinə çatdırmağa çalışırıq.

***

Demokratiya bəşəriyyətin işıqlı zəkasının kəşf etdiyi nadir dəyərdir. Demokratiya Azərbaycana çox böyük fayda – dövlət müstəqilliyinin saxlanılmasını və hərtərəfli inkişaf vəd edir.

***

Siyasət cəsarət, xidmət etdiyin amallara və ideyalara sədaqət, əlbəttə, öz silahdaş və məsləkdaşlarına sədaqət, özünü siyasətə həsr edən insanların tez-tez düşdükləri çətin vəziyyətdə onların dəstəklənməsini tələb edir. Hər bir siyasətçi yalnız cəsarətli, ideyalara, silahdaş və məsləkdaşlara, dövlətə sadiq olduqda müvəffəqiyyət qazana, əsl lider ola bilər

***

Milli dövlətçilik vahid məqsəd uğrunda – dövləti möhkəmləndirmək, iqtisadiyyatı modernləşdirmək və gələcək nəsillər üçün daha mükəmməl şərait yaratmaq naminə bütün millətin, bütün cəmiyyətin birliyinin rəmzidir.

***

Azərbaycançılıq xalqımızın çox əzab-əziyyətlə nail olduğu tarixi sərvətdir. O, real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir...

***

İlham Əliyevin siyasi, iqtisadi və mənəvi görüşlərinin formalaşmasına heç də təkcə ailə tərbiyəsi təsir göstərməmişdir. Görünür, burada onun şəxsi keyfiyyətləri, intellekti, ümumi mədəniyyəti, təvazökarlığı, şüurlu həyatı boyu topladığı bütün qiymətli və müsbət nə varsa hamısını faydalı şəkildə sintezləşdirmək bacarığı mühüm rol oynamışdır. Təsadüfi deyil ki, Prezident Heydər Əliyevdən savayı, başqa heç bir siyasətçinin qısa müddət ərzində İlham Əliyevin nail olduğu qədər belə geniş, kütləvi sosial bazası yoxdur. Onun sosial bazasının coğrafi və yaş həddi yoxdur, o, bütün yaşlardan və ölkənin bütün bölgələrindən olan nümayəndələri öz ətrafında birləşdirən nadir bir siyasətçidir.

***

Dünya azərbaycanlılarının birliyi müstəqil və azad Azərbaycan ideyalarının həyata keçirilməsində, ümummilli məqsədlərimizin möhkəmləndirilməsində, dövlət müstəqilliyimizin möhkəmləndirilməsində və dövlətçilik ənənələrimizin inkişaf etdirilməsində müstəsna əhəmiyyət kəsb edir.

***

Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının əsasını Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, milli-mənəvi varlığına və ümumbəşəri dəyərlərə hörmət təşkil edir.

***

Azərbaycan sülhsevər ölkədir. Respublikamızın xarici siyasətinin əsasını sülh yaratmaq niyyətləri təşkil edir.

***

Müstəqil dövlət kimi Azərbaycan Respublikası bütün ölkələrlə öz münasibətlərini qarşılıqlı fayda əsasında qurmağa çalışır.

***

Biz ölkədə və bütün dünyada, bölgəmizdə hər bir ölkənin

ərazi bütövlüyünün təmin olunmasının tərəfdarıyıq. Bu, beynəlxalq hüquq normalarının tələbidir. Biz tələb edirik ki, bütün dövlətlər, ölkələr bu beynəlxalq hüquq normalarına riayət etsinlər.

***

Azərbaycan bir müstəqil dövlət kimi öz taleyinin sahibi, öz torpaqlarının sahibi, öz hüquqlarının sahibi olacaq və gələcək firavan həyatını özü quracaqdır.

***

Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Bakını əsrlər boyu quranlar, yaradanlar, bugünkü gün və gələcək nəsillər üçün gözəl bir şəhər salıblar.

***

Bakı özünün digər layiqli keyfiyyətləri ilə yanaşı, sözün ən yüksək anlamında, həmişə ən müstəqil şəhər olmuşdur.

***

Gəncənin tarixində Azərbaycan xalqının qəhrəmanlığını, müdrikliyini, böyüklüyünü nümayiş etdirən çox böyük və əziz səhifələr var.

***

Gəncə böyük mədəniyyət mərkəzidir və Azərbaycan mədəniyyətinin qədim tarixini dünyaya nümayiş etdirən bir şəhərdir.

***

Biz bütün respublikada, hər bir bölgədə olan vəziyyəti qiymətləndirməliyik və hər bir bölgə üçün lazımi tədbirləri görməliyik.

Gələcək hər bir sakin, hər bir insan şəhərlər haqqında düşünsün, yaşadığı yer, küçə, ev haqqında düşünsün. Amma biz bütün respublika haqqında düşünürük və düşünməliyik.

# Görkəmli dövlət xadimi və cəmiyyətşünas alim

Azərbaycan elmində dövlət idarəçiliyi və elmi fəaliyyətlə paralel şəkildə məşğul olan, bu istiqamətlərin hər ikisində də uğurlar qazanan mütəfəkkir şəxsiyyətlər olmuşdur. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev də ölkəmizdə dövlətçilik təfəkkürü ilə elmi baxışların qarşılıqlı vəhdətini bütün mahiyyəti ilə öz fəaliyyətində tam olaraq ifadə edən görkəmli dövlət və elm xadimi kimi qəbul olunur. Dövlət idarəçiliyi və elm sahələrində onun səmərəli fəaliyyəti hər iki istiqamətin inkişafı ilə müşayiət olunmuş və həmin sahələr bir-birlərini tamamlamışdır.

Zəngin tərcümeyi-hala malik olan Ramiz Mehdiyev 17 aprel 1938-ci ildə Bakı şəhərində anadan olmuşdur. Onun mənsub olduğu nəsil şəcərəsi indiki Şərur rayonunun Qarxun kəndi ilə bağlıdır. Uşaqlıq illərindən Ramiz Mehdiyev Naxçıvan şəhərində yaşamış, 1945-1955-ci illərdə burada Aleksandr Puşkin adına 3 saylı məktəbdə orta təhsil almışdır. Sonra o, 1956-1957-ci illərdə Bakı Dənizçilik məktəbində oxumuş və buranı fərqlənmə diplomu ilə bitirmişdir. "Xəzərdənizneftqazsənaye" Ümumittifaq İstehsalat Birliyinin "Xəzərneftdonanma" idarəsinin gəmilərində maşinist kimi çalışmışdır. Əvvəlcə həmin idarədə gəmi komsomol katibi kimi fəaliyyətə başlayan Ramiz Mehdiyev qısa müddətdə "Xəzərneftdonanma" idarəsinin komsomol təşkilatı katibinin müavini vəzifəsinə irəli çəkilmişdir.

Ramiz Mehdiyevin gənclik, tələbəlik illərindən başlanan ictimai-siyasi fəaliyyəti tədricən inkişaf edərək dövlət idarəçiliyinin müxtəlif məsuliyyətli mərhələlərini əhatə etmişdir. Göründüyü kimi, dövlət idarəetmə sistemində o, əsasən ideoloji cəbhəni təmsil etmiş, demək olar ki, bu istiqamət üzrə müxtəlif məsul vəzifələrdə çalışaraq zəngin təcrübə qazanmış, mühüm ümumdövlət vəzifələrinin həyata keçirilməsinə sanballı töhfələr vermişdir.

Dövlət idarəetmə sisteminin ideoloji blokunda Ramiz Mehdiyevin keçdiyi çətin, məsuliyyətli və şərəfli yol həyatını dövlətçilik sahəsinə həsr etmiş bir insanın gənclər təşkilatının ən adi əməkdaşından məsul partiya işçisinə, ideoloji katib, Prezident Administrasiyasının rəhbəri vəzifəsinə qədərki bütün çətinliklərini və üstünlüklərini özündə canlı şəkildə əks etdirir.

Gənclər təşkilatı – komsomol komitəsi sahəsində səmərəli fəaliyyəti onun ideologiya xətti üzrə çoxillik fəaliyyətinin möhkəm bünövrəsini təşkil etmişdir. “Xəzərneftdonanma” idarəsinin əvvəlcə gəmi üzrə komsomol təşkilatının katibi, sonra isə Ümumittifaq İstehsalat Birliyinin həmin respublika qurumunun komsomol təşkilatı katibinin müavini vəzifələrində çalışması onun siyasi fəaliyyət gəmisini ideoloji işin məsul təşkilati mərhələlərinə, hətta böyük siyasətin magistral yoluna gətirib çatdırmışdır.

Bütövlükdə komsomol-gənclər təşkilatı Ramiz Mehdiyev üçün sözün əsl mənasında zəngin həyat və siyasi fəaliyyət, mühüm idarəetmə təcrübəsi məktəbi funksiyasını həyata keçirmişdir. Gənc Ramiz Mehdiyev 1962-1963-cü illərdə Azərbaycan Dövlət Universiteti tarix fakültəsinin komsomol təşkilatının katibi və ümumuniversitet komsomol komitəsi katibinin müavini vəzifələrində tələbə gənclərlə iş təcrübəsi əsasında ümumiyyətlə ideya-siyasi iş aparmağın yollarını və vasitələrini öyrənmişdir. Buna görədir ki, hələ Bakı Dövlət Universitetinin tələbəsi ikən 1965-ci ildə Azərbaycan Gənclər İttifaqının tələbə gənclər şöbəsinin təlimatçısı Ramiz Mehdiyev qısa müddətdən sonra Naxçıvan Vilayət Komsomol Komitəsinin ikinci katibi vəzifəsinə irəli çəkilmişdir. Naxçıvan Vilayət Komsomol Komitəsində çalışdığı 1967-1968-ci illər onun üçün mühüm həyat məktəbinə çevrilmişdir.

Heç şübhəsiz, Ramiz Mehdiyevin sonrakı dövlət idarəçiliyi iyerarxiyasında uğurlu “komsomol pilləsi” mühüm rol oynamışdır. O, komsomol təşkilatları sahəsində keçdiyi məsuliyyətli yolu partiya təşkilatları mərhələsində uğurla davam etdirmişdir. Ramiz Mehdiyevin bu sahədəki və ondan sonrakı bütün fəaliyyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı və rəhbərliyi ilə üzvi surətdə bağlı olmuşdur. O, Heydər Əliyev epo-

xasının siyasi-ideoloji cəbhədəki məsuliyyətli vəzifələrinin öhdəsindən layiqincə gəlmiş, necə deyərlər, böyük etimadı yüksək səviyyədə doğrultmuşdur.

Mühüm partiya işinə 1974-cü ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Təbliğat və təşviqat şöbəsinin mühazirəçisi kimi başlayan Ramiz Mehdiyev az sonra Mərkəzi Komitənin ideologiya məsələləri üzrə katibinin köməkçisi olaraq fəaliyyətini davam etdirmişdir. Bu sahədə qazandığı səriştə və təcrübə onun sonrakı taleyində mühüm rol oynamışdır. O, 1976-1977-ci illərdə Azərbaycan KP MK-nın Elm və təhsil müəssisələri şöbəsi müdirinin müavini vəzifəsində çalışaraq respublikada bu məsul sahənin inkişaf etdirilməsinə xidmət etmişdir. Bakı şəhərinin ən böyük və məsuliyyətli rayonlarından olan 26 Bakı komissarı adına Rayon Partiya Komitəsində 1978-1980-ci illərdə birinci katib vəzifəsində Ramiz Mehdiyev özünü əsl partiya işçisi kimi təsdiq etmişdir. Az sonra yenidən respublika miqyaslı partiya işinə qaytarılaraq 42 yaşında Azərbaycan KP MK-nın Elm və təhsil müəssisələri şöbəsinə rəhbərlik etmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi hakimiyyətinin birinci mərhələsinə aid olan bu illərdə Ramiz Mehdiyev respublikada baş vermiş böyük intibahın ən yaxın iştirakçılarından və fəal qurucularından biri olmuşdur.

Tapşırılan vəzifəyə məsuliyyətlə, sədaqətlə xidmət etmək, habelə prinsipiallıq və təmkinli praqmatik yanaşma, irəliyə aydın baxış Ramiz Mehdiyevin dövlət quruculuğu və idarəçilik istiqamətindəki çoxillik səmərəli fəaliyyətinin mahiyyətini təşkil edir. Ramiz Mehdiyevə xas olan dərin məsuliyyət və müasir cəmiyyətin obyektiv siyasi-fəlsəfi dərki sovet hakimiyyəti illərində görkəmli dövlət xadimi Heydər Əliyevin böyük uzaqgörənliklə və uğurla həyata keçirdiyi Azərbaycançılıq siyasətinin icra edilməsində ideoloji xəttin uyğun səviyyədə qurulmasının təmin edilməsinə münbit şərait yaratmışdır.

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra da Ramiz Mehdiyev ulu öndər Heydər Əliyevin yüksək etimadı ilə məsul vəzifələrə irəli çəkilmiş və Ulu Öndərin rəhbərliyi ilə o,

dərin köklərə malik müdrik dövlət siyasətinin həyata keçirilməsinə məsuliyyətlə xidmət göstərmişdir. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri vəzifəsində akademik Ramiz Mehdiyev 1995-ci ildən bu günə qədər məsul dövlət tapşırıqlarını uğurla yerinə yetirmiş, ölkə üzrə aparılan böyük və uzaqgörən siyasətə daim ürəkdən dəstək vermişdir. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri kimi akademik Ramiz Mehdiyev müstəqil dövlətimizin ictimai-siyasi həyatında yaxından iştirak edir, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan düşünülmüş, məqsədyönlü və müstəqil siyasətin dönmədən həyata keçirilməsinə şərəflə xidmət göstərir. O, ölkəmizdə ciddi və möhkəm mövqeyə malik dövlət xadimi və strateji baxışları ilə səciyyələnən ideoloq kimi xüsusi nüfuz qazanmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin onun çoxillik səmərəli fəaliyyəti haqqındakı aşağıdakı sözləri Ramiz müəllimin müstəqil dövlətçilik qarşısındakı məsuliyyətli borcunun icrasına verilmiş yüksək siyasi qiymətin ifadəsidir: "Siz uzun illərdir ki, dövlət qulluğunda fəaliyyət göstərirsiniz. 70-80-ci illərdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə işləmisiniz. Ulu öndərimiz müstəqil Azərbaycanın rəhbəri kimi fəaliyyətə başlayandan sonra onun ilk təyin etdiyi şəxslərdən biri də Siz olmuşsunuz. O vaxtdan bu günə qədər Azərbaycanın dövlət quruculuğunda çox fəal iştirak etmisiniz və bu fəaliyyətinizi indi də davam etdirirsiniz... Mən sizin fəaliyyətinizi yüksək qiymətləndirirəm. Prezidentin İcra Aparatının rəhbəri kimi siz ölkəmiz üçün çox vacib funksiyanı icra edirsiniz".[1]

Qeyd olunduğu kimi, Ramiz Mehdiyev hansı vəzifədə çalışmasından asılı olmayaraq, həmişə elmi fəaliyyətini ardıcıl olaraq davam etdirmişdir. Ona görə də bütün çoxillik fəaliyyəti boyu elm faktoru Ramiz Mehdiyevi daim müşayiət etmişdir. Belə ki, o, 1968-ci ildə Mixail Lomonosov adına Moskva Dövlət Universitetinin fəlsəfə fakültəsinin aspiranturasına qəbul olmuş, burada tanınmış filosoflardan dərs almış və 1972-ci ildə həmin ali

[1] Bax: Ramiz Mehdiyev. Biblioqrafiya. Bakı, AZƏRTAC, 2009, səh.3

məktəbin nüfuzlu Müdafiə şurasında millətlərarası münasibətlərin nəzəri məsələlərinə həsr olunmuş namizədlik dissertasiyası müdafiə edərək fəlsəfə elmləri namizədi alimlik dərəcəsi qazanmışdır. Azərbaycan Dövlət Universitetində müəllim kimi çalışdığı 1972-1974-cü illərdə də Ramiz Mehdiyev cəmiyyət həyatının aktual məsələlərinə həsr edilmiş tədqiqatlarla məşğul olmuşdur.

Daşıdığı məsul vəzifələrdə də Ramiz Mehdiyev elmin inkişaf etdirilməsi ilə əlaqədar məsələlərə xüsusi diqqət yetirmişdir. Azərbaycan KP MK-nın Elm və təhsil müəssisələri şöbəsinə 1976-1981-ci illərdə rəhbərlik edərkən Ramiz Mehdiyev respublika üzrə elmin inkişaf etdirilməsi qayğıları ilə məşğul olmuş, ölkə rəhbəri Heydər Əliyevin bu istiqamətdəki strategiyasının həyata keçirilməsinə cavabdehlik daşımışdır. Nəhayət, Azərbaycan partiya təşkilatının ideologiya məsələləri üzrə katibi kimi Ramiz Mehdiyev 1983-1988-ci illərdə konkret bir epoxada elm və təhsil faktorunun qarşılıqlı surətdə inkişaf etdirilməsi yollarında əzmlə çalışmışdır. Sonralar bir qədər partiya işindən ayrıldıqdan sonra o, Azərbaycan Elmlər Akademiyası İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunun şöbə müdiri vəzifəsində çalışmaqla elm sahəsindəki fəaliyyətlərini daha da genişləndirmişdir.

Nəhayət, bütün bunlar Ramiz Mehdiyevin 1993-cü ilin dekabr ayında "Millətlərarası münasibətlər: nəzəriyyə və siyasət problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etməsi ilə nəticələnmişdir. Bu, heç də keçmiş Sovetlər İttifaqı formatında düşünülən xalqlar dostluğu mənasında olmayıb, bəşəri dəyərlər miqyasında millətlərarası münasibətlərin reallıqlarını əhatə edən və hətta millətlərarası zəmində baş verən münaqişələrə də nəzər salan, çıxış yolları göstərən, səmərəli təklifləri irəli sürən, proqnozlar verən fundamental siyasi-fəlsəfi tədqiqat idi. Akademik Ramiz Mehdiyev ölkədaxili millətlərarası münasibətlər məsələsinə ulu öndər Heydər Əliyevin siyasətdə və təcrübədə uğurla həll edərək respublikada yaşayan bütün xalqların mənafelərini vahid amal ətrafında birləşdirən azərbaycançılıq təliminin

işığında yanaşmış, bu aktual problemə praqmatik elmi qiymət vermişdir. Ramiz müəllimin geniş mənada millətlərarası münasibətlərin tənzimlənməsi istiqamətlərindəki baxışları da bu sahədə təntənəli mərasimlərin icra edilməsinə yox, qarşılıqlı etimada və ehtirama əsaslanan nəzəri-təcrübi müddəaları özündə ifadə edir.

Çoxillik zəngin elmi təcrübəsinə və bu istiqamətdəki xidmətlərinə görə 2007-ci ildə Ramiz Mehdiyevin Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilməsi ilə onun elmi fəaliyyət cəbhəsindəki fədakar fəaliyyətinin üfüqləri daha da intensivləşdirilmişdir. O, Azərbaycan Milli Elmlər Akademiyasının üzvü kimi bir sıra fundamental fəlsəfi tədqiqat əsərləri meydana qoymuşdur. Akademiyanın çap etdirdiyi bir çox sanballı elmi əsərlər, o cümlədən Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 25 illiyinə həsr edilmiş iri həcmli "Müstəqillik yollarında" kitabı akademik Ramiz Mehdiyevin ümumi redaktorluğu və sanballı giriş məqaləsi ilə hazırlanıb elmi ictimaiyyətə çatdırılmışdır.[2] Milli Elmlər Akademiyasında həyata keçirilməsi davam etdirilən genişmiqyaslı islahatların səmərəli olmasında da ideoloji sahənin rəhbəri kimi akademik Ramiz Mehdiyevin mühüm rolu vardır.

Elmi fəaliyyət baxımından isə akademik Ramiz Mehdiyev ilk növbədə çoxlarının asan və populist bir fəaliyyət sahəsi hesab edərək qoşulduğu və buna görə də çox zaman axıra çatdıra bilmədiyi siyasətin çox məsuliyyətli bir istiqamət və özünəməxsus prinsiplərə malik bir təlim olduğunu siyasi-nəzəri cəhətdən əsaslandırmışdır. Bu mənada akademik Ramiz Mehdiyev müstəqillik dövrü Azərbaycan elmində siyasətşünaslıq istiqamətinin yaradıcısıdır. Akademik Ramiz Mehdiyevin siyasət sahəsindəki baxışları ümumi, mücərrəd müddəalardan ibarət deyil, əksinə, konkret Azərbaycan reallıqlarından və müqayisəli şəkildə dünya təcrübəsindən çıxış etməklə formalaşdırılmış obyektiv baxışlar sistemi olduğu üçün həm elmin inkişafında, həm də ölkədə siyasi mühitin

[2] Müstəqillik yollarında. Məqalələr (Akademik Ramiz Mehdiyevin ümumi redaktəsi ilə). Bakı, "Şərq-Qərb", 2017

tənzimlənməsinə xidmət mənasında çox əhəmiyyətlidir. Ona görə də akademik Ramiz Mehdiyevin siyasət formulu müasir Azərbaycan cəmiyyətinin reallıqlarına əsaslanan və irəliyə doğru inkişafa hesablanmış konkret nəzəri təlimdir. Bu isə o deməkdir ki, akademik Ramiz Mehdiyev müasir Azərbaycan cəmiyyətinin inkişafının siyasi-fəlsəfi əsaslarını işləyib hazırlamışdır.

Cəmiyyətşünas filosof kimi Ramiz müəllim ölkəmizin keşməkeşli inkişaf yollarındakı qabarma və çəkilmələrin, mühüm dialektik yüksəliş proseslərinin dərin fəlsəfi mahiyyətini açıb göstərməklə bərabər, mövcud imkanlara və perspektivlərə də daim işıq salmağa ciddi əhəmiyyət vermişdir. Bu isə onun fəlsəfi baxışlarının tarixi əhəmiyyəti ilə bərabər, həm də müasirliyini və aktuallığını, həyatiliyini də müəyyən etmişdir.

Akademik Ramiz Mehdiyevin nəzəri-fəlsəfi irsi Heydər Əliyevçilik və azərbaycançılıq məsələlərinin vəhdəti ilə səciyyələnir. Haqlı olaraq Ramiz müəllim görkəmli dövlət xadimi Heydər Əliyevi azərbaycançılığı müstəqil dövlətimizin ideologiyası səviyyəsinə qaldırmış görkəmli dövlət xadimi kimi təqdim edir. Akademik Ramiz Mehdiyevin azərbaycançılıq ideologiyası konsepsiyası görkəmli dövlət xadimi Heydər Əliyevin dövlət səviyyəsində uğurla həyata keçirdiyi milli dirçəliş proqramına əsaslanır, Ulu Öndərin böyük bir hərəkata çevirdiyi azərbaycançılıq təliminin nəzəri-fəlsəfi dərkini və şərhini bütün yönləri ilə əks etdirir: "Azərbaycançılıq" dövlət siyasətinin strategiyası olaraq Azərbaycan cəmiyyətinin bugününün və gələcəyinin müasir ideoloji qavranması ilə sıx birləşir. "Azərbaycançılıq" xalqımızın iztirabları ilə yoğrulmuş tarixi dəyərdir, real müstəqilliyə nail olunması, vahid, bölünməz Azərbaycanın qorunması və möhkəmləndirilməsi üçün açardır. Bu gün "azərbaycançılıq" milli həyatın, konfessiyaların harmoniyasının çoxəsrlik ənənəsi, ölkədə yaşayan bütün millət və etnik qrupların qardaşlığının, qarşılıqlı əlaqə və qarşılıqlı təsirinin tarixi, onların ümumi taleyi və müstəqil Azərbaycanın bütövlüyü uğrunda birgə mübarizələrinin tarixi təcrübəsidir. Beləliklə, "azərbaycançılıq" ideologiyası etnik yox, siyasi və vətəndaşlıq xarakteri daşıyır, yalnız müstəqil Azər-

baycanın vətəndaşlarına münasibətdə deyil, Azərbaycanın müstəqil dövlətçilik ideyasını əziz tutanlara münasibətdə də öz birləşdirici funksiyasını yerinə yetirir”.[3]

Ulu öndər Heydər Əliyevin simasında ümummilli lider miqyasının mahiyyəti də ilk dəfə və mükəmməl surətdə akademik Ramiz Mehdiyev tərəfindən elmi-siyasi cəhətdən əsaslandırılmışdır: “Milli dövlət və milli lider müasir tarixin fenomenləridir… Azərbaycan xalqının ümummilli lideri (Heydər Əliyev - İ.H.) həmin lider şəxsiyyətlərdən biridir. …Milli lider olmağın meyarları və izahı müxtəlifdir. Hələ Aristotel yazırdı ki, siyasi, liderliyin ilkin şərti dövlətin gələcəyini öncədən görmək və gördüyünü həyata keçirə bilməkdir. Onlar (ümummilli liderlər – İ.H.) dövlətin xarici və daxili siyasətini müəyyən edən, onu beynəlxalq münasibətlərdə təmsil edən ali vəzifəli şəxslər kimi qəbul edilir. ...Heydər Əliyev ümummilli lider zirvəsində... müstəqil Azərbaycan dövlətini yaratmışdır və onun bütün sahələrdə sarsılmaz təməllərini müəyyən etmişdir. ...Buna görədir ki, Heydər Əliyev aramızdan getsə də, onun yaratdığı dövlətçilik fəlsəfəsi hər gün bizimlə qoşa, bizdən öndə addımlayır və yaşayır”.[4]

Çoxcəhətli zəngin elmi təcrübəyə malik olan akademik Ramiz Mehdiyevin nəzəri-fəlsəfi təlimində hər əsər Azərbaycan cəmiyyətinin bir mühüm sahəsinin, vacib bir istiqamətinin fəlsəfi dərkindən ibarətdir. Görkəmli elm xadiminin elmi-nəzəri əsərləri Heydər Əliyev-İlham Əliyev epoxasının siyasi-fəlsəfi epopeyasını təcəssüm etdirir.

Akademik Ramiz Mehdiyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük uğurla, möhkəm siyasi iradə ilə həyata keçirdiyi geniş miqyaslı islahatlar proqramının və ölkəmizin modernləşdirilməsi hərəkatının əsas istiqamətlərinin dərin elmi təhlilinin mükəmməl örnəklərini meydana qoymuşdur. O, ölkə başçısı İlham Əliyevin böyük siyasətdə və müstəqil dövlətin idarə olunmasındakı rolunu və mövqeyini elmi cəhətdən əsaslan-

---

[3] Heydər Əliyev mənim həyatımda (Məsləhətçi və ön sözün müəllifi akademik Ramiz Mehdiyev). Bakı, “Azərbaycan”, 2013, səh.23

[4] Yenə orada, səh.7

dırılmış şəkildə qiymətləndirmişdir. Akademik Ramiz Mehdiyevin elmi-fəlsəfi baxışlarında "Prezident İlham Əliyevin milli dövlətçilik quruculuğu, Azərbaycanın demokratik inkişafı məsələləri barədə mövqeyi tarixi məntiqə, dünya təcrübəsinə, səmərəli siyasətə, ən başlıcası isə Azərbaycanın milli maraqlarına söykənən milli ideyanın gerçəkləşməsinin nəzərə alınmasına əsaslanır. Cəmiyyətin bu dərk edilmiş obyektiv tələbatı onun milli dəyərlərindən irəli gəlir və dövlətin qorunub saxlanmasına, onun mövcudluğu və mütərəqqi inkişafı üçün əlverişli şərait yaradılmasına yönəlmişdir. Milli maraqlara və inkişaf strategiyasının mahiyyətinə xalqın əksəriyyətinin həmrəy münasibətinə əsaslanan demokratiya daha səmərəlidir və hər bir yeni müstəqil dövlət üçün nümunə ola bilər".[5]

Sənətşünas filosof alimin elmi irsi qloballaşmanın gətirdiyi problemlərlə bərabər, milli dövlət quruculuğu məsələləri, azərbaycançılıq fəlsəfəsinin reallıqları, ölkəmizin demokratik inkişaf modelləri, milli mənşə və identiklik problemlərinə həsr olunmuş fundamental tədqiqatlar sistemini özündə birləşdirir. Akademik Ramiz Mehdiyev bir-biri ilə qarşılıqlı surətdə əlaqədar olan bu problemlərə kompleks şəkildə yanaşaraq, məsələləri siyasi-fəlsəfi və tarixi-dialektik cəhətdən şərh edərək konkret və ümumiləşdirilmiş nəticələr çıxarmışdır. Fikrimizcə, bu tədqiqatların hamısını birləşdirən ən ümumi aparıcı xüsusiyyət Heydər Əliyevçilik – azərbaycançılıqdır.

Görkəmli filosof, akademik Ramiz Mehdiyevin "Azərbaycanın inkişaf dialektikası" (2000), "Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi" (2001), "Demokratiya yolunda: irs haqqında düşünərkən" (2008) monoqrafiyalarında Heydər Əliyevçilik - Azərbaycançılığın dialektik inkişaf prosesləri dərindən və əsaslandırılmış şəkildə şərh olunmuşdur. Bu əsərlər ölkəmizdə Heydər Əliyevşünaslığın – Azərbaycanşünaslığın həm fəlsəfi-elmi əsasları, həm də mükəmməl ideologiyasıdır.

[5] Ramiz Mehdiyev. Müasir Azərbaycan. Dövrün baxışında. Bakı, "Azərbaycan" qəzeti, 2011, səh.62

Bu mənada akademik Ramiz Mehdiyev həm də mükəmməl bir ideoloqdur. Onun ideoloji əsərlərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ümummilli lider Heydər Əliyev təliminin yaradıcılıqla və ardıcıllıqla davam etdirilməsi istiqamətindəki rolu və xidmətləri ilə yanaşı, yeni erada özünün də formalaşdırdığı müasir modernləşmə xəttinin mahiyyəti və əhəmiyyəti obyektiv mövqedən qiymətləndirilmişdir. Bütövlükdə Ramiz Mehdiyevin "Azərbaycan: qloballaşma dövrünün tələbləri" (2005), "Vətəndaş cəmiyyətinə yol açan ideyalar" (2006), "2005-ci il parlament seçkiləri: ilkin təhlil" (2006), "Modernləşmə xətti yenə də gündəlikdədir" (2008), "Azərbaycan – 2003-2008: zaman haqqında düşünərkən" (2009) və sair əsərləri ölkəmizin müstəqillik dövrü tarixində yeni mərhələ olan İlham Əliyev dövrünün reallıqlarını və perspektivlərini aydın surətdə təqdim edən qiymətli traktatlardır. O, müasir Azərbaycan cəmiyyətinin inkişafında mühüm əhəmiyyət kəsb edən bu tarixi mərhələyə daim hərəkətdə, davamlı prosesdə olan mühüm bir ictimai-siyasi hərəkat kimi baxır və gedişatın təzahürlərinə aydınlıq gətirdiyi kimi, proseslərin sabahına da konkret elmi baxışları meydana qoyur.

Akademik Ramiz Mehdiyev qəti şəkildə inanır və inandırır ki, Prezident İlham Əliyevin uğrunda mübarizə apardığı müstəqil dövlətçilik idealları konkret tarixi mərhələ ilə bitməyən, ümumiyyətlə Azərbaycan xalqının və müstəqil dövlətimizin dialektik inkişaf qanunauyğunluğunun, təkamül proseslərinin məntiqi ardıcıllığının və dayanıqlı inkişafının daim irəliyə aparan ana xətləridir. Bu mənada Ramiz müəllimin əsərləri həm də Azərbaycan Respublikasının perspektiv inkişafının da fəlsəfəsini özündə cəmləşdirir.

Cəmiyyətdə baş verən proseslərə tarixilik və müasirlik mövqeyindən dərin və əsaslı baxış akademik Ramiz Mehdiyevin elmi fəaliyyətinin əsas xarakterik xüsusiyyətlərindən biridir. Buna görədir ki, ixtisasca tarixçi olan akademik Ramiz Mehdiyevin elmi-nəzəri əsərlərində tarixi aspekt həmişə olmuşdur. O, bir filosof kimi cəmiyyətin inkişaf dialektikasını daim tarixi təkamül

proseslərinin axarında axtarıb müasirlik mövqeyindən qiymətləndirir. Bununla belə, akademik Ramiz Mehdiyevin son illərdə Azərbaycan tarixi problemlərinin tədqiq edilməsi məsələlərinə ciddi dönüşü xalqımızın və dövlətimizin çoxəsrlik tarixinin bir çox əhəmiyyətli məqamlarının və görkəmli simalarının xidmətlərinin yenidən dərk və şərh edilməsinə böyük töhfə verir. Aydın görünür ki, Ramiz Mehdiyevin tarixi mövzuya müraciət etməsinin məqsədi də əslində Azərbaycan dövlətçiliyinin çoxəsrlik real və bütöv mənzərəsini yaratmaqdan ibarətdir.

Son illərdə yazılmasına baxmayaraq, akademik Ramiz Mehdiyevin Azərbaycan tarixinin aktual problemlərinə, xüsusi mərhələlərinə və görkəmli şəxsiyyətlərinə həsr olunmuş elmi əsərləri sanki onun indiyədək yazılmış və ölkəmizin XX-XXI əsrlər tarixinə həsr edilmiş fəlsəfi əsərlərinin mükəmməl bir elmi müqəddiməsidir. Bu əsərlər möhkəm elmi bünövrə mənasında da, ümumiləşmiş yekun kimi olsa da, Ramiz Mehdiyevin irsində bütövlük və tamlığa uğurla xidmət edir.

Görkəmli elm xadiminin Azərbaycanın dövlətçilik tarixində xüsusi yer tutmuş Səfəvi imperatorluğunun qüdrətli simaları olan Şah İsmayıl Xətai və Nadir şah Əfşardan bəhs edən sanballı monoqrafik tədqiqatları milli dövlətçilik tariximizin yenidən, mötəbər mənbələr və məxəzlər əsasında və milli mövqedən tədqiq edilməsinin mükəmməl nümunələridir. Bu əsərlər Azərbaycan tarixşünaslıq elmində dönüş yaradan ciddi elmi tədqiqatlardır. Akademik Ramiz Mehdiyevin "Şah İsmayıl Səfəvi: sərkərdənin və döyüşçünün taleyi" (2014) və "Nadir Şah Əfşar. Diplomatik yazışmalar" (2015) monoqrafik tədqiqatları Azərbaycan tarix elminin ən mühüm nailiyyətlərindən biri sayılmağa tamamilə layiqdir. Ciddi elmi-nəzəri dəyəri və mühüm tarixi-fəlsəfi əhəmiyyəti ilə səciyyələnən bu kitablar da həmçinin ilk dəfə olaraq Şah İsmayıl Xətai və Nadir şah Əfşar dövrünə aid çox sayda tarixi yazışmaları, zəngin epistolyar irsi elmi dövriyyəyə təqdim etməsi ilə bu kitablar ictimai və humanitar elmləri təmsil edən elm adamları üçün əhəmiyyətli mənbə, mötəbər məxəz

rolunu oynayır. Akademik Ramiz Mehdiyevin elmi redaktorluğu, geniş və sanballı müqəddiməsi ilə nəşr olunmuş "Şah İsmayıl Səfəvi. Tarixi-diplomatk sənədlər toplusu"nda (2014) verilmiş Sultan Səlimlə tarixi yazışmalar: 49 məktub, 3 hökmdar fərmanı, 1 fətva Azərbaycan elmi üçün tam yeni olan qiymətli materiallardır. Eyni zamanda, "Nadir Şah Əfşar. Diplomatik yazışmalar" (2015) kitabındakı "Şərqin Napoleonu" kimi böyük şöhrət qazanmış bu qüdrətli dövlət xadiminin Rum padşahı Sultan Mahmud xanla, Hindistan hökmdarı Məhəmməd şahla, Məşhəd vilayətinin mütəvvəllisi Mirzə Məhəmməd Rza ilə, Rusiya dövlət başçısı və başqaları ilə yazışmalarını əks etdirən 28 məktubu həmin dövrün siyasi-tarixi proseslərinə yenidən baxmağı meydana qoyan nadir sənədlərdir. Ona görə də bu əsərlər həm də müasir mərhələdə Azərbaycan tarixşünaslıq elmini, ölkə tarixini milli meyarlar və müstəqil dövlətçilik baxımından yenidən yazılmağa istiqamətləndirən, səfərbər edən bələdçi kitablardır.

Əslində akademik Ramiz Mehdiyev tarixi mövzuda yazdığı əsərləri ilə həm də Azərbaycanın çoxəsrlik dövlətçilik tarixinin Şah İsmayıl Xətaidən Heydər Əliyevə qədərki dövrlərinin bütöv və ümumiləşdirilmiş elmi salnaməsini canlandırmışdır.

"Dağlıq Qarabağ: məxəzlərdən oxunmuş tarix" və Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycan-İran münasibətlərinə həsr edilmiş kitabları da yeni yanaşmaları, nadir sənədləri və materialları, müasir ideyaları elmi dövriyyəyə gətirməsi ilə bərabər, həm də milli dövlətçilik tarixinin ayrı-ayrı mərhələlərinin problemlərini tam halda və sistemli şəkildə tədqiq edib öyrənməyə xidmət edir. Bu kitablarda ilk dəfə elmi dövriyyəyə daxil edilmiş zəngin arxiv sənədləri və yazışmalar haqqında söz açılan dövrlərin reallıqlarına işıq salan və obyektiv elmi nəticələr çıxarmağa əsas verən mötəbər mənbələrdir. Azərbaycan cəmiyyətinə, elmi ictimaiyyətə təqdim edilən həmin yeni və zəngin arxiv materiallarından ictimai elmlər üzrə çalışan digər tədqiqatçılar da istifadə edərək sanballı elmi əsərlər hazırlaya bilərlər.

Akademik Ramiz Mehdiyevin bu günlərdə Moskvada

"Rosspen" nəşriyyatında çapdan çıxmış "Qlobal dəyişmələr dövründə Azərbaycan milli ideyası" adlı iki cildlik monoqrafiyası Azərbaycan ictimai elmləri sahəsində mühüm elmi hadisə sayılmağa layiq olan çox qiymətli tədqiqat əsəridir. Bu, akademik Ramiz Mehdiyevin çoxillik elmi ideyalarının və tədqiqatlarının məntiqi davamı olan, lakin problemə tam yeni mövqedən aydınlıq gətirən və qiymət verən orijinal tədqiqatdır. Bu əsərdə ilk dəfə olaraq milli mənşə ilə milli ideologiya məsələlərinə vahid bir prosesin təzahürü kimi obyektiv elmi-fəlsəfi qiymət verilmişdir. Akademik Ramiz Mehdiyev nəticə olaraq bu qənaətdədir ki, müasir transformasiyalar dövründə güclü Azərbaycan dövlətinin yaranması və inkişaf etdirilməsi milli ideyanın ən bariz ifadəsidir. Təqdim olunan monoqrafiya ictimai elmlər sahəsində yeni istiqamətlər açmaqla elmi fikrin axarını dəyişməyə bələdçilik edir.

Görkəmli dövlət xadimi və böyük tarixçi-filosof alim, akademik Ramiz Mehdiyev elmi və siyasi-ideoloji fəaliyyəti ilə müstəqil Azərbaycan dövlətinin və ümummilli ideyaların inkişaf etdirilməsinə şərəflə və məsuliyyətlə xidmət etməkdədir. Ayrı-ayrı dövrlərdə Ramiz Mehdiyevin Azərbaycan Respublikası Milli Məclisinin deputatı kimi apardığı səmərəli ictimai-siyasi iş ölkəmizdəki sabitliyin və inkişafın daha da möhkəmləndirilməsinə öz töhfələrini vermişdir.

Bu gün də milli dövlətçilik təfəkkürü ilə elmi fəaliyyəti mükəmməl surətdə özündə cəmləşdirən Azərbaycan Respublikası Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev respublikamızda elmi və siyasi-ideoloji proseslərin idarə olunmasına bacarıqla rəhbərlik edir.

Akademik Ramiz Mehdiyevin siyasi portreti şəxsiyyətinin bütövlüyü, dövlətçilik ideallarına dərin sədaqəti, taleyüklü həlledici məsələlərdəki prinsipial mövqeyi, müdrik qərarlar qəbul etmək istedadı və xeyirxahlığı ilə səciyyələnir. Dərin və möhkəm mənəvi keyfiyyətlər onun siyasi xarakterini tamamlayır və möhkəmləndirir.

Azərbaycan dövləti görkəmli elm və dövlət xadimi Ramiz

Mehdiyevin çoxillik səmərəli xidmətlərini həmişə yüksək qiymətləndirmişdir. Akademik Ramiz Mehdiyevin müxtəlif tarixi dövrlərdə təltif edildiyi "Qırmızı Əmək Bayrağı" ordeni, "Şöhrət" və "İstiqlal" ordenləri dövlətimizin onun çoxcəhətli fəaliyyətinə verdiyi böyük qiyməti əyani surətdə təsdiq edir.

Azərbaycanın müstəqillik dövrünü dövlətçilik istiqamətində və elm sahəsində bacarıqla təmsil edən akademik Ramiz Mehdiyev bu gün də çoxcəhətli elmi və siyasi-ideoloji fəaliyyət yollarında özünün şərəfli və məsuliyyətli missiyasını böyük uğurla davam etdirir.

**İsa HƏBİBBƏYLİ,**
*AMEA-nın vitse-prezidenti, akademik*

## Azərbaycanın dövlət, elm və mədəniyyət xadimləri Ramiz Mehdiyev haqqında

Yüksək fitri istedad tək-tək şəxsiyyətlərə qismət olur. Söhbət şöhrətli alim, böyük ictimai xadim, dəyərli insan, akademik Ramiz Mehdiyevdən gedir. Mən Ramiz Ənvər oğlu Mehdiyevi 60-cı illərdən, hələ sovet dövründə respublika komsomolunda onunla birgə çalışdığımız vaxtdan tanıyıram. Mübaliğəsiz deyə bilərəm ki, Ramiz Mehdiyev olduqca çətin, mürəkkəb və keşməkeşli həyat yolu keçmişdir. Fəlsəfə elminə hədsiz həvəs göstərən Ramiz Ənvər oğlu həyatı boyu elmi axtarışlarda olmuş və yeni-yeni nailiyyətləri ilə həmişə elmi ictimaiyyətimizi sevindirmişdir. Fərəhli haldır ki, bu gün Ramiz Mehdiyev ölkəmizdə fəlsəfə elminin canlı klassiklərindən biridir. O, bu elmin aparıcı siması olub akademiklik zirvəsinə ucalmışdır. Onun fəlsəfə sahəsindəki çox qiymətli və dəyərli kitabları filosof-alimlərin hədsiz marağına səbəb olmuşdur. Ramiz Mehdiyevin əsərlərində bugünkü demokratik cəmiyyətdən, bu cəmiyyətdə gedən ictimai proseslərin mahiyyətindən, ulu öndər Heydər Əliyevin zəngin irsinin araşdırılmasından və Azərbaycanda dövlət quruculuğunun mühüm məsələlərindən bəhs edilir. Onun elmi yaradıcılığında ölkəmizin demokratiya yolunda əldə etdiyi nailiyyətlər, iqtisadiyyatmızın bugünkü yüksək inkişaf səviyyəsi, islahatlann həyata keçirilməsi məsələləri mühüm yer tutur. Bugünkü təhsilimizin inkişaf yolları, savadlı gənc nəslin yetişdirilməsi, yüksək səviyyəli kadrların hazırlanması məsələləri də alimin diqqətindən kənarda qalmır. Sevindirici haldır ki, dünyanın bir çox görkəmli mütəxəssisləri akademik Ramiz Mehdiyevin əsərlərində qaldırılan problemlərə öz münasibətlərini bildirmiş və onları yüksək qiymətləndirmişlər.

Akademik Ramiz Mehdiyev uzun illərdir Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri kimi çox məsul vəzifədə çalışır. Onun bilavasitə rəhbərliyi ilə respublikamızda

siyasi-elmi əhəmiyyət daşıyan beynəlxalq tədbirlər keçirilmişdir. Heydər Əliyev məktəbinin ən sadiq tanınmış nümayəndələrindən biri olan Ramiz Mehdiyev müstəqillik illərində dövlətçiliyin qurulması və inkişafında böyük xidmətləri vardır.

Akademik Ramiz Mehdiyev olduqca işgüzar, zəhmətsevər, yorulmaq bilməyən bir insandır. Onun fikri daim elmi axtarışlarda, qəlbi isə Vətənimizin tərəqqisi, yüksəlişi və azadlığı arzusu ilə döyünməkdədir. Görkəmli fılosof-alim, dövlət xadimi, yüksək fitri istedad sahibi akademik Ramiz Mehdiyev həm də olduqca sadə təbiətli, səmimi, yüksək insani keyfiyyətlərə malik, mübariz bir şəxsiyyətdir.

"Əvət! Ancaq mübarizə mənlik verir hər millətə,
Nəşə sərpən yalnız odur hər şəxsə, hər cəmiyyətə
Hər yurdu çatdıran odur özlədiyi səadətə,
Odur ancaq qovuşduran insanları məhəbbətə!"

**"Qərbə səyahət" (Hüseyn Cavid)**

Akademik Ramiz Mehdiyevə dövlətimizin, elmimizin şərəfli yollarında və tutduğu məsul vəzifədə yeni-yeni uğurlar arzulayıram.

**Akif ƏLİZADƏ,**
*akademik*

Yüksək zəka sahibi, təcrübəli siyasət adamı, dövlət xadimi, ən başlıcası isə, dövlətin siyasi gələcəyini çox aydın şəkildə təsəvvür və təhlil edən strateq kimi akademik Ramiz Mehdiyev öz elmi fəaliyyəti ilə ölkədə ümumi prioritetlər sisteminin formalaşmasına əsaslı təsir göstərir.

Əsərlərində respublikamızda demokratik proseslərin sürətləndirilməsini şərtləndirən sosial-siyasi və iqtisadi amilləri diqqətə çəkən, vətəndaş cəmiyyətinin formalaşdırılması məqsədinə hesablanmış islahatlardan söhbət açan, uzunmüddətli dövlət idarəçiliyində topladığı zəngin təcrübə və peşəkarlığa əsaslanaraq, dövlətçiliyin inkişafı ilə bağlı taleyüklü fikirlər söyləyən akademik şərəfli bir missiyanın daşıyıcısı olduğunu bir daha sübut etmiş olur. Görkəmli filosof-alim Ramiz Mehdiyev Azərbaycan-

da dövlət quruculuğu işlərinin nəzəri əsaslarının formalaşdırılması, qazanılan təcrübənin elmi nəzəriyyəyə transformasiya edilməsi istiqamətində ciddi işlər görərək, cəmiyyətin müsbət ruhda köklənməsinə və milli ideallar uğrunda səfərbər olunmasına nail olur, milli təəssübkeşliyini təcəssüm etdirir.

**Mahmud KƏRİMOV,**
*akademik*

Ümummilli lider Heydər Əliyev tərəfindən ölkəmizin inkişafı naminə müəyyənləşdirilən uzaqhədəfli, düşünülmüş siyasətin Prezident cənab İlham Əliyevin səyləri nəticəsində uğurla həyata keçirildiyi bir vaxtda nəzəri cəhətdən əsaslandırılmış fundamental strategiyaya ehtiyac daha da artır. Bu sahədə ən önəmli, konkret iş görən, Azərbaycanın gələcək tərəqqisinə hesablanmış tədqiqatlar aparan fəlsəfə elmləri doktoru, akademik Ramiz Mehdiyevdir. O, uzun illərdən bəri rəhbər vəzifələrdə çalışmaqla dövlət idarəçiliyi sahəsində çox böyük təcrübə toplamışdır. Bu təcrübə uzaqgörən bir dövlət xadimi, bir alim kimi ona ölkəmizin gələcək inkişaf strategiyası haqqında çox dəqiq fikirlər irəli sürməyə imkan verir. Akademik ölkəmizin perspektivini modernləşmədə, qabaqcıl dünyəvi dəyərləri mənimsəməkdə, bununla yanaşı, milli irsi qorumaqda və yaşatmaqda görür. Alimin Azərbaycanın gələcəyi ilə bağlı apardığı fəlsəfi və iqtisadi təhlilləri, novator düşüncələri, əsaslı proqnozları, konseptual qiymətləndirmələri dərin elmi əsaslandırmaya söykənir. O, hərtərəfli elmi axtarışlar aparmaq, dünya təcrübəsini öyrənmək, yer üzündə baş verən qlobal prosesləri izləməklə özünün həm nəzəri, həm də əməli müddəalarını müəyyən etmişdir. Onun çıxardığı nəzəri nəticələr milli zəminə əsaslanır, Azərbaycanda fəlsəfi fikrin inkişafına xidmət edir.

Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev həm də yüksək intellektli, zəngin erudisiyalı alim, filosofdur. Onun Azərbaycan dövlətinin və cəmiyyətinin inkişafına aid elmi monoqrafiyaları və əsərləri həm də dövlətimizin başçısı cənab İlham Əliyevin siyasətinin həyata keçirilməsinə xidmət edir.

**Arif MEHDİYEV,**
*akademik*

Akademik Ramiz Mehdiyevi mən hələ keçən əsrin 70-ci illərindən, onu Azərbaycan Dövlət Universitetinin (indiki BDU) sayılıb-seçilən gənc alimlərindən və ali məktəbin nüfuzlu müəllimlərindən biri kimi tanımışam. Sonralar o, filosof alim və bacarıqlı təşkilatçı kimi dövlət idarələrində işləməyə cəlb edildi. Lakin cənab Mehdiyev əmək fəaliyyətinin mühüm tərəflərindən birini təşkil edən elmə olan böyük həvəsindən heç zaman uzaqlaşmamışdır. Hətta xalqımızın dövlət müstəqilliyini bərpa etdiyi ilk illərdə elm aləminə göstərilən biganəlik və soyuq münasibət şəraitində belə o, sevdiyi peşəsinə sadiq qalaraq, Azərbaycan Elmlər Akademiyasında tədqiqatlarını səylə davam etdirmişdir.

Görkəmli alim akademik R.Mehdiyevin elmi maraqları xeyli geniş olmaqla, həm də dərin düşündürücüdür. Fəlsəfə elminin mühüm, ümumbəşəri problemləri ilə bərabər, onun tədqiqatlarında müstəqil Azərbaycan həyatının bütün sahələrində həlledici əhəmiyyət daşıyan məsələlər, xüsusən ölkəmizin hərtərəfli inkişafında qazanılan misli görünməmiş nailiyyətlərin əldə edilməsində dövlət siyasətinin aparılmasında elmi yanaşmanın daxili məzmunu, beynəlxalq aləmdə yaranan hər cür şəraitə uyğun Azərbaycanın milli maraqlara cavab verən tarazlaşdırılmış mövqeyinin, Qarabağ münaqişəsinin meydana gəlməsinin əsl mahiyyətinin düzgün şərh edilməsi mühüm yer tutur. Müstəqil Azərbaycanın həyatı üçün vacib olan problemlərin ətraflı tədqiqi, o cümlədən hüquqi, demokratik dövlət quruculuğu məsələləri, millətlərarası münasibətlər və onların səmərəli inkişaf yollarının müəyyən edilməsi, ölkəmizdə sabit və ardıcıl quruculuq mühitinin qorunması və möhkəmləndirilməsi və sair akademik R.Mehdiyevin tədqiqatlarının diqqət mərkəzindədir.

Akademik R.Mehdiyevin elmi yaradıcılığından danışarkən, ilk növbədə, onun tədqiqat metodlarına xas olan bir cəhət diqqəti daha çox cəlb edir. Bəzi tədqiqatçılardan fərqli olaraq, Ramiz müəllim müstəqil Azərbaycanın ictimai-siyasi və sosial-iqtisadi həyatında baş verən dəyişikliklərin təkcə nəticələrini araşdırmaqla məhdudlaşmır, eyni zamanda, onların köklü səbəblərinin dərin elmi təhlilini verərək, əsl mahiyyətini üzə çıxarır. Bununla da

akademik özünün tədqiqatlarında ulu öndər Heydər Əliyevin millətin taleyi üçün həyati əhəmiyyət daşıyan, müdrik və uzaqgörən siyasətinin əsaslarını açıb göstərir. Ölkənin bu günü və gələcəyinə hesablanan bu xətti layiqincə və yaradıcı şəkildə həyata keçirən Prezident İlham Əliyevin daxili və xarici siyasətinin mahiyyətini, əsas istiqamətlərini dərinliyi ilə qiymətləndirir. Çox əlamətdardır ki, akademik R.Mehdiyevin monoqrafiyaları və kitabları ilə yanaşı, kütləvi mətbuat səhifələrində dərc etdirdiyi irihəcmli məqalələri istər olkə daxilində, istərsə də dünyada geniş marağa səbəb olur. Təsadüfi deyil ki, onun yeni cəmiyyət quruculuğu sahəsində apardığı tədqiqatlardan irəli gələn nəzəri fikirləri və mülahizələri ölkə ictimaiyyəti tərəfindən layiqincə qiymətləndirilir və geniş müzakirə mövzusuna çevrilir. Alimin cəmiyyətimizdə kamil və vətənpərvər insanların təşəkkülünə verdiyi töhfələr əvəzsiz və tədqirəlayiqdir.

Asəf NADİROV,<br>akademik

AMEA-nın həqiqi üzvü Ramiz Ənvər oğlu Mehdiyev son on ildə nəşr etdirdiyi fundamental tədqiqatları ilə ölkəmizdə fəlsəfi və ictimai-siyasi fikir tarixinin yeni inkişaf mərhələsinin əsasını qoymuşdur. Onun “Azərbaycanın inkişaf dialektikası” monoqrafiyasından başlamış “Demokratiya yolunda:irs haqqında düşünərkən” kitabına qədər bir sıra sanballı əsərləri, son vaxtlarda dövri mətbuatda nəşr edilmiş və elmi problemlərə yeni yanaşma keyfiyyətləri ilə seçilən qiymətli məqalələri ölkəmizdə təkcə fəlsəfənin yox, bütünlükdə humanitar elmlərin inkişafında çox əhəmiyyətli hadisədir.

Milli tariximizin ən əlamətdar mərhələsi olan müstəqil Azərbaycan dövlətinin əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş yeni azərbaycançılıq və dövlətçilik məfkurəsinin elmi-fəlsəfi, ictimai-siyasi mahiyyətinin açılıb ümumiləşdirilməsində akademik Ramiz Ənvər oğlu Mehdiyevin böyük xidmətləri vardır. Bu gün alim möhtərəm Prezidentimiz cənab İlham Əliyevin çox böyük müvəffəqiyyətlə həyata keçirdiyi vüsətli

sosial-iqtisadi islahatların, Azərbaycanın yaşadığımız mürəkkəb zamanın tələbləri əsasında tərəqqisinin nəzəri-fəlsəfi məqamlarının işlənib hazırlanmasına rəhbərlik edir. Mən həm bu sahədə, həm də yeni fundamental elmi araşdırmalar sahəsində Ramiz müəllimin bundan sonra da səmərəli çalışacağına ürəkdən inanır və ona yeni yaradıcılıq uğurları arzulayıram.

**Bəkir NƏBİYEV,**
*akademik*

Akademik Ramiz Mehdiyev Azərbaycanda ictimai və humanitar elmlər sahəsində fəlsəfə, sosiologiya və politologiya elmlərini özündə birləşdirən yeni bir elmi məktəbin yaradıcısıdır. 40 ildən çoxdur ki, ən aktual problemləri öz tədqiqat obyektinə çevirən bu məktəb zamanın sınağından keçərək günbə-gün inkişaf edir, elmimizi zənginləşdirir.

Alimin nəzəri və tətbiqi fəlsəfənin parlaq nümunələri kimi qəbul edilən əsərləri ölkəmizin siyasi, ictimai, mədəni problemləri ilə bilavasitə bağlı olan ən mühüm məsələlərin həllinə yüksək dərəcədə yardım etməklə bərabər, gələcəyin strategiyasının düzgün müəyyənləşdirilməsi işinə də yaxından xidmət göstərir. Elmiliyi, xəlqiliyi ilə seçilən bu əsərlərdə xalq öz gündəlik həyatı ilə, düşüncələri ilə səsləşən problemlərin həllini görür, suallarına cavab tapır.

Böyük alimin və ictimai xadimin əsərləri ədəbi dilimizin elmi üslubuna, dilinə də dəyərli yeniliklər gətirmiş, onu zənginləşdirmiş və inkişaf etdirmişdir. Ana dilində, eləcə də təhsil aldığı rus dilində gözəl əsərlər yaradan alimin kitablarının adında da diqqətçəkən yeniliklər vardır.

Akademik Ramiz Mehdiyev artıq nəzəri və tətbiqi fəlsəfə sahələrində elmimizin ən yüksək zirvəsindədir. Bu zirvəyə onu dərin məzmunlu əsərləri, parlaq istedadı, zəngin biliyi, bənzərsiz zəhmətsevərliyi, qeyri-adi şəxsiyyəti ucaltmışdır.

**Ağamusa AXUNDOV,**
*akademik*

Akademik Ramiz Ənvər oğlu Mehdiyev Azərbaycanın ən tanınmış siyasi xadimlərindən biri və heç şübhəsiz, zəmanəmizin təkamül demokratiyasının, suveren demokratiyanın bazis problemlərini tədqiq edən böyük filosofdur. Lakin onunla şəxsi tanışlığımız nisbətən yaxın vaxtlarda – 2004-cü ildə mən Azərbaycan Milli Ensiklopediyası (AME) Redaksiya Şurasının məsul katibi və AME Elmi Mərkəzinin direktoru təyin edilərkən baş tutmuşdur. O, Azərbaycanın yeni Milli Ensiklopediyasının və "Azərbaycan" adlı xüsusi cildin nəşr edilməsinin aktuallığını və bu işin artıq görülməli olduğunu inandırıcı şəkildə əsaslandıraraq bildirdi ki, ölkəmizin rəhbərliyi AME-nin hazırlanmasını mənə, təbiət elmlərinin nümayəndəsinə tapşırır.

Fəaliyyətimin əvvəlində üzləşdiyim təşkilati xarakterli çətinliklər və problemlər akademik Ramiz Mehdiyevin vaxtında göstərdiyi diqqət və qayğı sayəsində həll edildi. Buna görə ona dərin minnətdarlığımı bildirirəm. Akademiklə söhbət zamanı mənə aydın oldu ki, yeni beynəlxalq iqtisadi və siyasi münasibətlər sisteminin yarandığı qloballaşma əsrində Azərbaycan demokratiyanın və iqtisadi sistemin inkişaf etdiyi ölkələr sırasında öz layiqli yerini tutmalıdır. Bu baxımdan, ölkə vətəndaşlarının indi yüksək səmərə verən islahatların həyata keçirildiyi bir vaxtda zəruri biliklər sistemi olan fundamental universal ensiklopediyaya ehtiyac var. Bu görüşlər zamanı akademik mənə özünün iki fundamental kitabını təqdim etdi. Həmin kitabların ümdə əhəmiyyəti onların adlarından görünür – "Azərbaycan: qloballaşma dövrünün tələbləri" və "Demokratiya yolunda: irs haqqında düşünərkən". Bu monoqrafiyaların ictimai-fəlsəfi əhəmiyyəti çox böyükdür. Həmin əsərlərdə müəllif qlobal transformasiyalar dövründə Azərbaycanın ictimai-siyasi inkişaf perspektivlərinin futuroloji icmalını verir. Məni, ilk növbədə, heyrətləndirən bu oldu ki, keçən əsrin 70-ci illərinin əvvəlindən dövlət idarəetmə sistemində çalışan müəllif ölkəmizin icti-mai-siyasi və iqtisadi sahədə qazandığı uğurları, Azərbaycanın necə taleyüklü dəyişikliklər dövrü yaşamasını və müstəqillik şəraitində hansı zirvələrə çatmasını yüksək elmi-fəlsəfi səviyyədə təhlil etmək və ümumiləşdirmək

üçün də vaxt tapmışdır. Onun gəldiyi hərtərəfli əsaslandırılmış nəticə belədir: "...De-okratikləşmə ilə yanaşı, mən bu məsələlər arasında enerjili, iradəli lider başda olmaqla, güclü Azərbaycan dövləti qurulması məsələsini də görürəm". Belə dövlətin qurulması ümumən dünya birliyi qarşısında duran ən mühüm məsələlərdən biridir, çünki dövlətlərin zəifliyi və tənəzzülü bir çox sosial-iqtisadi və siyasi problemlər doğura bilər. Bu müddəa milli ideyanın təməl daşı və uzaq perspektiv üçün nəzərdə tutulan milli inkişaf proqramının bünövrəsidir.

Akademikin kitablarının fəlsəfi dərinliyi məni düşünməyə vadar etdi: o, yüksək dövlət vəzifəsində işi elmi yaradıcılıqla əlaqələndirməyə necə nail olur? Məlum oldu ki, akademik Ramiz Mehdiyev həyatı boyu həmişə iki istiqamətdə – elmi və dövləti fəaliyyətdə paralel və sinxron işləmişdir, ən başlıcası, onun fəaliyyətinin hər iki tərəfi koherent və komplementar olmuşdur.

Akademik Ramiz Mehdiyev fenomeninin təməli hələ 1968-ci ildə qoyulmuşdur. Həmin ildə o, M.V.Lomonosov adına MDU-nun fəlsəfə fakültəsinin aspiranturasına daxil olmuş, 1972-ci ildə orada fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya, 1993-cü ildə isə doktorluq dissertasiyasını uğurla müdafiə etmişdir. Qeyd edək ki, həmin illərdə Moskva Universitetində SSRİ-nin ən yaxşı filosof alimləri cəmləşmişdi və ali fəlsəfə ixtisası məktəbi keçmək özünü elmin ən mürəkkəb sahələrindən biri olan fəlsəfə ilə həmişəlik bağlamaq demək idi.

Bütün sonrakı illərdə xeyli vaxt və qüvvə tələb edən yüksək dövləti xidmətdə çalışmaqla bərabər, o, alim taleyinə sadiq qalır, Azərbaycanın milli və sosial-siyasi inkişafı problemlərinə dair bir-birinin ardınca sanballı elmi məqalələrində və kitablarında futuroloji proqnozlar verir. Beləliklə, akademik Ramiz Mehdiyev öz monoqrafiyalarında yüksək siyasət ilə tranzitar inkişaf şəraitində sosial-siyasi və iqtisadi dəyişikliklərə fəlsəfi yanaşmanın vəhdəti sayəsində vətəndaş cəmiyyətinə, müstəqilliyə və sabitliyə gedən yolda milli ideya kontekstində əsas prioritet vəzifələri ifadə edir.

Onun əməksevərliyinə və seçdiyi elmə sədaqətinə heyran qalmamaq olmur. Yaradıcılığı əsasən keçmişimizə yönəlmiş filo-

sofların bir çoxundan fərqli olaraq, akademik Ramiz Mehdiyev öz elmi araşdırmalarını həmişə ölkəmizin bu günü və gələcəyi ilə əlaqələndirmişdir. Bu, onun yaradıcılığını müasirləşdirir, Azərbaycan cəmiyyətində bu yaradıcılığa tələbatı artırır.

Mən əminəm ki, akademik Ramiz Mehdiyev öz yaradıcı potensialını hələ tam sərf etməmişdir və bundan sonra da futuroloji xarakterli neçə-neçə fundamental fəlsəfi əsərlər yaradacaqdır.

**Tofiq NAGIYEV,**
*akademik*

Son dərəcə səlis, axıcı, zəngin və original bir üsulda yazılan, dərin elmi-fəlsəfi məzmunu ilə fərqlənən "Modernləşmə xətti yenə də gündəlikdədir" əsəri Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin yeni dünya nizamının reallığını düzgün müəyyənləşdirən, ölkənin gələcək inkişafı ilə bağlı yetkin elmi-konseptual baxışlara malik siyasətçi və dövlət xadimi, filosof olduğunu bir daha təsdiqləyir. Düşünürük ki, akademikin bu əsərində yüksək vətənpərvərliklə irəli sürdüyü tezislər Bakı Dövlət Universitetində gənclərlə işin daha səmərəli təşkili, onların yeni dövrün gerçəklikləri ruhunda formalaşması baxımından əhəmiyyətlidir. Çünki universitet tarixən milli ictimai fikrin əsas daşıyıcılarından olmuş, fəaliyyətində daim milli ideyalara əsaslanmışdır.

**Abel MƏHƏRRƏMOV,**
*akademik*

Azərbaycan dövlətçiliyi tarixində xüsusi mərhələ təşkil edən Heydər Əliyev dövlətçilik məktəbində keçdiyi yol, əldə etdiyi təcrübə Ramiz Mehdiyev üçün əsl universitet olmuşdur. Görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin zəngin dövlətçilik və idarəetmə siyasəti Ramiz Mehdiyev üçün milli dövlətçilik işinin strategiyası kimi qəbul edilmişdir. Bu əbədiyaşar dövlətçilik strategiyasının mükəmməl fəlsəfi dərki və dəyərləndirilməsi Ramiz Mehdiyevi dövlət işinin və cəmiyyət həyatının ön mövqeyinə çıxarmışdır. O, çoxillik və çoxcəhətli fəaliyyəti ilə

Heydər Əliyevin milli dövlətçilik ideallarına sədaqətin ölkənin və xalqın inkişafında əsas amil olduğunu bir daha isbatlamışdır.

Dövlətçilik fəaliyyətini cəmiyyət həyatı ilə üzvi surətdə əlaqələndirmək, hətta həyatda gedən prosesləri qabaqlamaq bacarığı dövlətçilik nərdivanını addım-addım qalxan Ramiz Mehdiyevi xarakterizə edən əsas cəhətlərdəndir. O, böyük məharətlə cəmiyyət həyatını dövlət işinin nəbzi üstündə kökləməyi bacarır. Məsələnin bu cəhəti dövlət işinə də, cəmiyyət həyatının inkişafına da fayda gətirir.

Cəmiyyətdə gedən prosesləri canlı həyatla, dövlət işini zəngin təcrübə ilə və bunların hamısını böyük fəlsəfənin, elmin qanunauyğunluqları ilə uzlaşdırmaq dövlətçilik fəaliyyətində olduğu kimi, Ramiz Mehdiyevin elmi fəaliyyətinin də cövhərini təşkil edir. O, böyük elmdə milli dövlətçilik və cəmiyyətşünaslıq fəlsəfəsinin əsaslarını yaradan görkəmli nəzəriyyəçi alim kimi qəbul olunur. Eyni zamanda, onu dövlətçilik işində, həm də cəmiyyətşünaslığın elmi-metodoloji əsaslarına dərindən bələd olan elm xadimi kimi fərqləndirirlər. Akademik Ramiz Mehdiyevin cəmiyyətşünaslıq fəlsəfəsi və dövlətçilik fəaliyyəti yeni tarixi epoxada Azərbaycan dövlətinin və xalqımızın inkişafına, azərbaycançılıq ideologiyasının gerçəkləşdirilməsinə, ölkəmizin beynəlxalq birlikdəki yerinin daha da möhkəmləndirilməsinə uğurla xidmət edir.

**İsa HƏBİBBƏYLİ,**
*akademik, AMEA-nın vitse-prezidenti*

Müasir dünyanın ictimai-siyasi və iqtisadi inkişaf meyilləri özünəməxsus xüsusiyyətləri və dinamikası ilə fərqlənir. Beynəlxalq iqtisadi və siyasi münasibətlərin yeni sisteminin təşəkkül tapması, transmilli korporasiyaların hegemonluğu, mütərəqqi texnologiyalara əsaslanan informasiya cəmiyyətlərinin yaranması və beynəlxalq inteqrasiya proseslərinin sürətlənməsi ilə səciyyələnən qloballaşma dövründə dünya nizamının formalaşmasına təsir edən hadisələrin səbəbləri, mahiyyəti və inkişaf perspektivlərinin öyrənilməsi mühüm elmi-nəzəri və siyasi aktuallıq kəsb edir.

Müstəqil dövlət kimi beynəlxalq məkanda layiqli yer tutmağa çalışan gənc Azərbaycan Respublikası qloballaşmanın tələblərinə etinasız yanaşa və onların təsirindən özünü tam sığortalaya bilməz. Bu baxımdan müstəqillik illərində aparılan elmi araşdırmalar sırasında fəlsəfə elmləri doktoru, akademik Ramiz Mehdiyevin yaradıcılığı özünün aktual tədqiqat obyektinə, mövzuların geniş spektrinə və elmi araşdırmaların dərinliyinə görə elmi ictimaiyyət, habelə siyasətşünaslar və praktik siyasətçilər tərəfindən böyük maraqla qarşılanmışdır.

İctimai-siyasi və milli münasibətlər, müasir Azərbaycan cəmiyyətinin və dövlətinin inkişafı meyilləri və problemlərinə dair çoxsaylı əsərlərin müəllifi olan akademik Ramiz Mehdiyevin tədqiqatlarında yeni mərhələyə qədəm qoymuş dövlətlərin müasir inkişaf meyilləri, müxtəlif tarixi dövrlərdə dünyadakı demokratik ideyaların dinamikası və onların Azərbaycan reallığında təzahürü məsələləri təhlil olunur. Qədim yunan filosoflarının, fransız maarifçilərinin, yeni və müasir dövrün tanınmış mütəfəkkirlərinin əsərlərinin geniş tədqiqata cəlb edilməsi, fəlsəfi cərəyanların, müasir siyasətşünaslığın başlıca müddəalarının elmi-nəzəri süzgəcdən keçirilməsi müəllifin elmi nəticələrinin sanbalını artırır və milli inkişaf modelinin müəyyənləşdirilməsinə öz töhfəsini verir.

Demokratiyanı keçid cəmiyyətlərinin mühüm və aktual problemi kimi qiymətləndirən akademik Ramiz Mehdiyevin elmi yaradıcılığında demokratik inkişaf yolu seçmiş Azərbaycanın keçid dövrünün qanunauyğunluqları və özünəməxsus xüsusiyyətləri dünyanın zəngin təcrübəsinin təhlili əsasında tədqiq olunur, ictimai-siyasi perspektivlər qiymətləndirilir. Müəllifin "Azərbaycan: qloballaşma dövrünün tələbləri" (Bakı, 2005), "2005-ci il parlament seçkiləri: ilkin təhlillər" (Bakı, 2006), "Vətəndaş cəmiyyətinə yol açan ideyalar" (Bakı, 2006), "Demokratiya yolunda: irs haqqında düşünərkən" (Bakı, 2007), "Yeni siyasət: inkişafa doğru": 2 cilddə (Bakı, 2008) və s. əsərlərində Azərbaycanın müasir sosial-iqtisadi və siyasi inkişafının dərin təhlili verilir, "soyuq müharibə"nin başa çatması ilə yaranan yeni dünya nizamının doğurduğu proseslərin keçid cəmiyyətlərinə təsiri və

onun təzahürləri araşdırılır, gənc dövlətlərin, xüsusilə Azərbaycanın inkişaf yollarına dair əsaslandırılmış fikirlər irəli sürülür.

Müasir Azərbaycan dövlətinin keçdiyi mürəkkəb yola, cəmiyyətin transformasiya problemlərinə dərindən bələd olan, cərəyan edən proseslərin qiymətləndirilməsində və müstəqil dövlət quruculuğu vəzifələrinin həyata keçirilməsində bilavasitə yaxından iştirak edən akademik Ramiz Mehdiyev qloballaşan dünyanın reallıqlarını, Azərbaycanda aparılan siyasi və sosial-iqtisadi islahatları dərindən təhlil edir, modernləşmənin cəmiyyətimizə təsirini qiymətləndirərək, Azərbaycanın seçimini elmi-nəzəri cəhətdən əsaslandırır.

Demokratiyanın idxal edilən modellərinin keçid cəmiyyətlərində uğur qazanmasını “xeyli dərəcədə bəri başdan cəmiyyətin siyasi, iqtisadi və sosiomədəni hazırlığının müəyyənləşdirdiyini” qeyd edən müəllif belə qənaətə gəlir ki, hansı məkanda qurulmasından asılı olmayaraq, demokratiya təkamül yolu ilə həyata keçirilməli və suveren olmalıdır. Belə demokratiya vətəndaş cəmiyyətinin kompleks və sabit inkişafına, cəmiyyətin səmərəli siyasi strukturunun formalaşmasına, rəqabət qabiliyyətli iqtisadiyyatın yaranmasına və regional proseslərin müsbət yöndə qurulmasına imkan verir. Müəllif bu konseptual yanaşmanı XXI əsrdə Azərbaycanın milli inkişaf strategiyasının əsas istiqaməti hesab edir.

Müstəqillik dövründə Azərbaycanın sosial-iqtisadi tərəqqisinin və həyata keçirilən ardıcıl hüquqi-demokratik islahatların ümummilli lider Heydər Əliyevin strateji dövlətçilik və idarəçilik xəttinin tərkib hissəsi kimi araşdırılması və həmin milli inkişaf siyasətinin Prezident İlham Əliyev tərəfindən dönmədən davam etdirilməsi və keyfiyyətcə yeni səviyyəyə qaldırılmasının konseptual şərhi akademik Ramiz Mehdiyevin əsərlərində qırmızı xətlə keçir. Müəllifin genişmiqyaslı nəzəri və praktik problemlərin qaldırılması və dərin elmi təhlil ilə səciyyələnən əsərləri oxucuda belə bir əminlik yaradır ki, Azərbaycanda demokratik islahatlar, ictimai-siyasi və iqtisadi modernləşmə xətti hərtərəfli düşünülmüş, əsaslı elmi-nəzəri bazaya söykənir. Akademik Ramiz

Mehdiyevin əsərləri həm də qaldırılan problemlərin çoxşaxəliliyi və müzakirəyə çıxarılan ideyaların zənginliyi baxımından tədqiqatçılar üçün yeni tezislər müəyyənləşdirir və maraqlı araşdırmalara yol açır.

Akademik Ramiz Mehdiyevin milli ruh və qlobal düşüncəyə xas olan yaradıcılığını, mübaliğəsiz olaraq, müasir azərbaycanşünaslığın ünvanı kimi səciyyələndirmək olar.

**Əli HƏSƏNOV,**
*tarix elmləri doktoru, professor*

Elmi ictimaiyyətimizdə dərin nəzəri biliyə, zəngin təcrübəyə, analitik təfəkkürə malik alim və kamil şəxsiyyət kimi tanınan Ramiz Ənvər oğlu Mehdiyev "Azərbaycanın inkişaf dialektikası", "Vətəndaş cəmiyyətinə yol açan ideyalar", "Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə", "2005-ci il parlament seçkiləri: ilkin təhlil (mülahizələr, nəticələr və proqnozlar)", "Azərbaycan: qloballaşma dövrünün tələbləri (keçmişin dərsləri, bu günün reallıqları və gələcəyin perspektivləri)" və "XXI əsrdə milli dövlətçilik" adlı fundamental monoqrafiyalarında respublikanın keçdiyi inkişaf yolu dərin fəlsəfi təfəkkür süzgəcindən keçirilərək geniş təhlil edilir, ictimai-siyasi həyatımızın vacib məsələləri ətraflı şərh olunur. Əsərlərdə söylənilən fikirlər, verilən şərhlər Azərbaycanın XX əsrdə və xüsusilə də son 30 ildəki inkişafının müxtəlif sahələrini əhatə edir. Bu fikirlər Azərbaycanın indiki inkişaf mərhələsi üçün də çox qiymətli və əhəmiyyətlidir.

Ramiz Mehdiyevin "Elimizin və dövlətimizin xilaskarı", "Ümummilli lider, tarixin sınağı və həqiqət anı", "Heydər Əliyev və müstəqil Azərbaycan dövlətinin qurulması prosesi", "Müstəqil Azərbaycan dövlətinin memarı", "Tariximizin Heydər Əliyev dövrü", "Azərbaycan tərəqqi və azadlıq yolunda (1969-1999)", "Dövlət idarəçiliyi nəzəriyyəsi və praktikasına Heydər Əliyevin töhfəsi" kimi məqalə, çıxış və məruzələrində Heydər Əliyevin böyük şəxsiyyəti, liderlik, rəhbərlik məharətinin müxtəlif aspektləri mahir filosof-politoloq qələmi ilə bütün incəlikləri ilə təhlil edilir, bu böyük və nadir şəxsiyyətin xalqımız, dövlətçiliyimiz

qarşısında göstərdiyi misilsiz xidmətlər yüksək elmi-nəzəri səviyyədə əsaslandırılır.

Bu barədə digər müəlliflər tərəfindən xeyli maraqlı, qiymətli yazılar olsa da, bu iş hələlik Ramiz Mehdiyevin tədqiqatlarındakı qədər dərin elmi-nəzəri əsasda təhlil və şərh edilməmişdir. Bu, bir tərəfdən, müəllifin yüksək nəzəri elmi səviyyəsi ilə əlaqədardırsa, digər tərəfdən, onun böyük şəxsiyyətlə uzun illərdən bəri yanaşı, bilavasitə rəhbərliyi altında işləməsi ilə bağlıdır.

**Seyfəddin QƏNDİLOV,**<br>
*tarix elmləri doktoru, professor,*<br>
*Əməkdar elm xadimi*

Görkəmli dövlət xadimi, tanınmış alim və ictimai-siyasi xadim, həqiqi dövlət müşaviri, akademik Ramiz Mehdiyev ölkəmizdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev siyasətinə dərindən bağlı olan, bu siyasətin ardıcıl həyata keçirilməsi istiqamətində səmərəli fəaliyyət göstərən nadir dövlət adamlarındandır. Hələ gənc yaşlarından komsomol və partiya orqanlarında işləyən və özünü təsdiq edən Ramiz Mehdiyev, sonralar mərkəzi partiya orqanlarında ən məsul vəzifələr tutmuş və həmin vəzifələrin öhdəsindən şərəflə gəlmişdir. Əmək fəaliyyətinə maşinist kimi başlayan Ramiz Mehdiyev həyatda özünü aspirant, elmi işçi, müəllim, komsomol, partiya işçisi, görkəmli və nüfuzlu ictimai-siyasi xadim kimi təsdiq etmişdir. Çox gənc yaşlarından əmək fəaliyyətinə başlayan Ramiz Mehdiyev harada, hansı sahələrdə çalışmasından asılı olmayaraq, öz ağlı, zəkası, qabiliyyəti ilə seçilmiş və bu səbəblərdən də irəli çəkilmişdir.

Ramiz Mehdiyev siyasi fəaliyyətə keçən əsrin 70-ci illərində ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi altında başlamışdır. Həmin dövrdən iti zəkasını, tükənməz enerjisini, yüksək iş qabiliyyətini və erudisiyasını Azərbaycan dövlətçiliyinin möhkəmlənməsinə, Heydər Əliyev ideyalarının reallaşmasına sərf etmişdir. Heydər Əliyevin rəhbərliyi altında işləmək onun üçün həyat məktəbi və qürur mənbəyi idi. O, bu dahi şəxsiyyətin iş üslubundan, ictimai-siyasi fəaliyyətindən faydalanmışdır. Ramiz

Mehdiyev həm 1970-1982, həm də 1994-2003-cü illərdə Ulu Öndərin rəhbərliyi altında işləmiş, bu siyasətin həyata keçirilməsində öz bilik və bacarığını sərf etmişdir. Heydər Əliyevlə birgə işləmiş ən çox stajlı dövlət xadimlərindən biridir, belə demək mümkünsə, o, həyatının üçdə birini ümummilli liderimizin rəhbərliyi altında keçirmişdir. Heydər Əliyevi yaxından tanıyan, onun iş üslubuna, idarəetmə məharətinə, xarizmatik lider keyfiyyətlərinə bələd olan Ramiz Mehdiyev gələcək tədqiqatlarında ulu öndərimizə əsərlər həsr etmiş və onu "XX əsrdə Azərbaycan dövlətçiliyinin xilaskarı, dünya siyasətinə təsir göstərən qüdrətli şəxsiyyət, bütün həyatını xalqına və doğma vətəninə xidmətə həsr edən "Böyük Azərbaycanlı" kimi xarakterizə etmişdir.

Ulu Öndərimiz ikinci dəfə siyasi hakimiyyətə gəldikdən sonra onun irəli çəkdiyi, vəzifə verdiyi, əvvəlki illərdən fəaliyyətindən və sədaqətindən, dövlətə və xalqa bağlılığından razı qaldığı dövlət adamlarından biri, bəlkə də birincisi Ramiz Mehdiyev idi. Əvvəlcə Prezident Administrasiyasında şöbə müdiri, sonra isə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri təyin edilmişdir. O vaxtdan keçən 15 ilə yaxın dövr ərzində Ramiz Mehdiyev Azərbaycanın dövlət quruculuğunda fəal iştirak etmiş, müstəqilliyimizin qorunması, ölkəmizin inkişafı və qüdrətlənməsi işinə öz dəyərli töhfələrini vermişdir. Təsadüfi deyil ki, R.Mehdiyevin dövlət quruculuğu sahəsindəki xidmətləri həm Ulu Öndərimiz, həm də Prezidentimiz cənab İlham Əliyev tərəfindən yüksək qiymətləndirilmişdir. O, 1994-cü ildə həqiqi dövlət müşa-viri adına, anadan olmasının 70 illiyində isə "İstiqlal" ordeninə layiq görülmüşdür. "Azərbaycan Respublikasında dövlət qulluğunda səmərəli fəaliyyətinə və dövlət quruculuğu işlərində xüsusi xidmətlərinə görə" ölkəmizin ən ali mükafatına layiq görülən Ramiz Mehdiyev bu mükafatı alan ilk dövlət xadimidir.

Akademik Ramiz Mehdiyev bu gün də nüfuzlu dövlət xadimi kimi geniş, səmərəli və məqsədyönlü fəaliyyət göstərir. Onun dövlət qulluğu sahəsindəki zəngin təcrübəsi və dövlət quruculuğu işlərinə verdiyi töhfə hər bir dövlət qulluqçusu üçün örnəkdir, təcrübədir, öyrənilməyə layiqdir. Təsadüfi deyil ki, Ramiz

Mehdiyevin fəaliyyətinin ikinci istiqaməti əldə etdiyi təcrübənin, qazandığı biliklərin gənc nəslə çatdırılmasıdır. O, hələ keçən əsrin 70-ci illərindən başlayaraq pedaqoji fəaliyyətlə də məşğul olmuş, Azərbaycan Dövlət Universitetinin baş müəllimi, Azərbaycan KP MK-nın mühazirəçisi, Dövlət İdarəçilik Akademiyasının professoru və Dövlət qulluğunun təşkilati əsasları kafedrasının müdiri kimi çalışmışdır və indi də bu istiqamətdə fəaliyyətini uğurla davam etdirir.

Akademik Ramiz Mehdiyevin fəaliyyətinin üçüncü istiqaməti onun ciddi elmi tədqiqat işləri ilə məşğul olması, hələ gənc yaşlarından elmə böyük maraq göstərməsidir. O, cəmiyyətşünas alim, görkəmli filosof, çox sanballı kitab və monoqrafiyaların müəllifi, nəzəriyyə və təcrübəni bir-biri ilə əlaqələndirən, nəzəri təcrübəni əməli fəaliyyətində tətbiq edən tək-tək dövlət xadimlərindən biridir. Onun dövlət qulluğunda əldə etdiyi nüfuza elmi fəaliyyətdə qazandığı nüfuz da əlavə olunmuşdur. Təsadüfi deyil ki, bütün bunlar Azərbaycan ictimaiyyətində, keçmiş SSRİ məkanında Ramiz Mehdiyev haqqında təcrübəli dövlət xadimi, görkəmli alim və nüfuzlu ictimai-siyasi xadim kimi müsbət rəy formalaşdırmışdır. Akademik Ramiz Mehdiyevin kitab və monoqrafiyaları, elmi məqalələri, çıxışları, müsahibələri bir daha bunu deməyə əsas verir ki, o, heç vaxt elmi fəaliyyətdən kənarda qalmamış, bu sahədə də öz sanballı sözünü demişdir. Onun son illərdəki əsərləri – "Demokratiya yolunda: irs haqqında düşünərkən", "Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti", "Yeni siyasət: inkişafa doğru" (iki cilddə), "Vətəndaş cəmiyyətinə yol açan ideyalar", digər kitab və monoqrafiyaları cəmiyyətşünas alimin elmi erudisiyasını, elmi-nəzəri təfəkkürünü bir daha ortaya qoyur.

Ümumiyyətlə, Azərbaycan ictimaiyyəti, elmi mühiti akademik Ramiz Mehdiyevi həm də respublikamızın ictimai-siyasi həyatında fəal iştirak edən, kəsərli və nüfuzlu sözünü deməyi bacaran, gör-kəmli ictimai-siyasi xadim kimi təqdir edir. O, 1980-1990-cı illərdə Azərbaycan Respublikası Ali Sovetinin, 1995-2000-ci illərdə isə Azərbaycan Milli Məclisinin deputatı olmuş,

qanun yaradıcılığı prosesinə də öz layiqli töhfəsini vermiş, respublikamızın ən çətin dövründə ictimai-siyasi hadisələrdə fəal iştirak etmiş və özünü bu sahədə də təsdiq etmişdir.

Həqiqi dövlət müşaviri, akademik Ramiz Mehdi-yevin adı ölkəmizdə qətiyyətli, prinsipial, ədalətli,çevik, erudisialı dövbt xadimi imicini formalaşdır-mışdır. Respublika ictimaiyyəti onu belə tanıyır vəsevir.

**İsmayıl HACIYEV,**
*akademik*

Adətən, elmlə təcrübənin sıx əlaqəsi, nəzəri fikrin həyatımızın mümkün aspektlərinə tətbiqi dəqiq sahələrə aid bir hal kimi qəbul edilir. İctimai-humanitar elm sahələrində bunun real təzahürünə elə də tez-tez təsadüf olunmur. Ramiz Mehdiyevin timsalında biz məhz belə bir fenomenal halın şahidi oluruq. Uzun illər Azərbaycan dövlətçiliyinin əsaslarını yaradıb inkişaf etdirən dahi bir şəxsiyyətin - Heydər Əliyevin amalına sədaqətini əməli ilə sübut etmiş Ramiz müəllim bu gün də Ulu Öndərin siyasi strategiyasının həyata keçirilməsinin keşiyindədir.

Öz nəzəri-fəlsəfi potensialını dövlətçilik quruculuğu istiqamətindəki fəaliyyəti ilə üzvi və ahəngdar şəkildə birləşdirmiş akademik Ramiz Mehdiyev ulu müəlliminin ən ali vəsiyyətini - Azərbaycanın xoşbəxt gələcəyini təmin etməyin yollarını və vasitələrini usanmadan arayıb tapan görkəmli dövlət xadimidir.

O, eyni zamanda, problemin kökünə baxmağı bacaran bir adamdır. Analitik təfəkkürü ona imkan verir ki, problemin kökünü müvafiq şaxələrə ayıraraq bugünkü həyatımıza uyğunlaşdırsın.

Azərbaycan sabaha doğru inamla addımlayır. İrəli-Avropa, irəli - müasir dünya dəyərləri, demokratik həyat... Biz hansısa məqamda ola bilsin ki, bəzən tələsirik, bəzən ləngiyirik. Amma hər bir halda irəliləməkdə davam edirik. Biz bu gün daha çox görməyə-götürməyə, dərk etməyə çalışırıq. Dünya ilə bərabər nəfəs almağa, onun ritminə girməyə can atırıq. Heydər Əliyev ənənələrinin sadiq davamçısı Azərbaycan Prezidenti İlham Əliyev bu yolda bizim mənəvi kompasımızdır.

Ramiz müəllim üçün bu yolu əzmlə getmək bir şərəf işidir. Bizim üçün də.

**Kamal ABDULLA,**
*akademik*

Cəmiyyətdə və dövlətdə şəxsiyyətin yeri, mövqeyi, imtiyazı onun mənsəbi, əsil-nəsəbi, zənginliyi ilə deyil, biliyi, elmi, intellekti, insanlığı, prinsipiallığı, gördüyü işləri, vətənə, millətə, xalqa sədaqətlə xidməti ilə müəyyən edilir. Bu mənada görkəmli dövlət xadimi, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin şəxsiyyəti bariz nümunədir.

Uzun illər dövlət idarəçiliyi sistemində çalışan akademik Ramiz Mehdiyevin fəaliyyəti daim Azərbaycanın sosial-siyasi, iqtisadi və mədəni inkişafına yönəlmişdir. Öz fəaliyyətində milli mənafeləri və dövlətçilik maraqlarını hər şeydən üstün tutan Ramiz müəllim, başlıca məqsəd kimi milli birlik və həmrəyliyin möhkəmləndirilməsi, ictimai-siyasi sabitliyin qorunması, müstəqil dövlətimizdə vətəndaş cəmiyyətinin qurulması, ölkəmizin tərəqqisi üçün böyük işlər görübdür.

Ramiz müəllim, eyni zamanda elmi tədqiqatın müasir metodlarının ən yüksək səviyyəsinə ucalmış görkəmli filosof alimdir. Onun əsərlərində dövrümüzün bir çox suallarına: biz kimik? haradayıq? hara gedirik?, inkişafın milli modeli, sabahın inkişaf strategiyası, keçid dövrü cəmiyyətlərində demokratiya və sair problemlərə cavab axtarılır və tapılır. Güclü Azərbaycan dövlətinin qurulması yolları müəyyən edilir. Ramiz Mehdiyevin tədqiqatları tariximizin Heydər Əliyev dövrünün, cərəyan edən ictimai-siyasi proseslərin, müstəqil dövlətçiliyin əsaslarının qurulmasının canlı salnaməsidir, bu dövr haqqında, Heydər Əliyev irsinin öyrənilməsində, təhlil və tədqiqində, gələcək nəsillərə çatdırılmasında əvəzsiz mənbədir.

Müdriklər demişlər ki, əməlsiz alim yağışsız bulud kimidir. Yəni alimin illər ərzində topladığı bilik insanlığa xidmət etməli, millət, xalq yolunda "xərclənməlidir". Bu mənada Ramiz müəllim elmi karyeranın kabinet rahatlığına sığınan alimlərdən deyil və əslində, onun vətəninə və xalqına tükənməz sevgisi də bu yolu

seçməyə imkan verməzdi. Elə həmin sevgi və zəngin iş təcrübəsi Ramiz müəllimi dövlətçilik tariximizin ən ağır və məsuliyyətli döv-ründə yüksək dövlət vəzifəsinə gətirmişdir. O, bir çox illər ümummilli liderimiz Heydər Əliyevlə çiyin-çiyinə çalışmış, onun sədaqətli məsləkdaşı və silahdaşı olmuşdur.

Ramiz müəllimin elmi və idarəetmə fəaliyyəti elm və əməl vəhdətinin təcəssümü kimi əlamətdardır. Onun şəxsiyyəti, necə deyərlər, nəzəriyyə ilə təcrübənin üzvi şəkildə bir-birini tamamladığını sübuta yetirən parlaq misal, tutarlı örnəkdir. Təkcə bu fakt onun şəxsiyyətinin miqyasını, təfəkkürünün diapazonunu, idrakının genişliyini təsəvvür etmək üçün kifayətdir.

Qısa yazıda Ramiz müəllimin elm və dövlət idarəçiliyi sahəsindəki böyük xidmətlərindən və uğurlarından danışmaq imkan xaricindədir - bu barədə onun çoxsaylı əsərləri və gördüyü işlər hər şeyi deyir. Yalnız bir neçə kəlmə onun şəxsi keyfiyyətləri haqda demək istərdim. O, fədakar, xeyirxah, təmkinli insandır. Eyni zamanda, Ramiz müəllimin bütün fəaliyyətində qlobal düşüncə, polad iradə, dərin məntiq, ardıcıllıq, praqmatizm sezilməyə bilməz. İlk növbədə özünə, sonra ətrafdakılara qarşı yüksək tələbkarlıq, söz və əməl birliyi – Ramiz müəllimin xarakterik keyfiyyətlərindəndir. O, istedadlı gənclərin və namuslu insanların hamisi və xeyirxahıdır. Ramiz müəllim mənəvi dəyərlərin, etik normaların, azərbaycanlı ruhunun daşıyıcısıdır, öz fəaliyyətində onlardan bir istinad nöqtəsi, təməl prinsipləri kimi faydalanır.

İnanırıq ki, artıq səksən yaşın zirvəsinə yüksəlmiş akademik Ramiz Mehdiyevin böyük idarəçilik təcrübəsi, elmi səriştəsi və tükənməz enerjisi hələ çox-çox illər xalqımıza, müstəqil Azərbaycanımızın tərəqqisinə xidmət edəcəkdir.

**Gövhər BAXŞƏLİYEVA,**
*akademik*

Akademik Ramiz Ənvər oğlu Mehdiyev özünün mühüm elmi-nəzəri və metodoloji xarakter daşıyan fundamental araşdırmaları ilə ictimai və humanitar elmlərin inkişafına güclü təkan verən, onu düzgün istiqamətə yönəldən görkəmli Azərbaycan alimidir.

Hərtərəfli biliyə və geniş dünyagörüşünə malik olan, Şərq və

Qərb fəlsəfəsinin tarixinə, inkişaf xüsusiyyətləri və qanunauyğunluqlarına dərindən bələd olan Ramiz Mehdiyev görkəmli elm xadimi, aparıcı Azərbaycan filosofudur.

Ramiz Mehdiyevin Azərbaycanın dövlətçilik tarixinə, müstəqillik dövründə yeni həyat quruculuğuna həsr olunmuş əsərləri nəzəri ümumiləşdirmələrin tarixi ənənələr və müasir praktika ilə vəhdətdə araşdırılması, eyni zamanda, gələcək üçün istiqamətverici proqnozların müəyyən edilməsi baxımından çox böyük elmi dəyərə malikdir.

Ümumbəşəri mənəvi sərvətlər xəzinəsinə qiymətli əsərlər bəxş etmiş vətəndaş alimin elmi yaradıcılığında Vətən tarixi problemləri və xalqımıza qarşı soyqırımı gerçəklikləri, milli dövlətçilik məsələləri və onun həlli yolları, qloballaşma və milli məfkurə, demokratik inkişaf və vətəndaş cəmiyyəti, modernləşmə və müasir dövrdə Azərbaycanın xarici siyasəti məsələləri bütöv bir sistem halında araşdırılır və konseptual xarakter daşıyır.

Ramiz Ənvər oğlu Mehdiyev bütün ömrü boyu Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak etmiş görkəmli dövlət xadimidir. Öz ömür yoluna adi zəhmətkeş həyatı ilə başlamış Ramiz Ənvər oğlu istedadı, çalışqanlığı və halal əməyi ilə pillə-pillə ucalmış, dahi Heydər Əliyevin ən yaxın silahdaşlarından biri zirvəsinə yüksəlmişdir. O, Yeni Azərbaycan dövlətinin qurulmasında həm səmərəli praktik fəaliyyəti ilə, həm də bir nəzəriyyəçi alim kimi həmişə yaxından iştirak etmişdir və indi də bu yoldadır.

Ramiz Mehdiyev olduqca dəyərli elmi-nəzəri əsərləri, praktik dövlət quruculuğu fəaliyyəti ilə xalqına və vətəninə, Heydər Əliyevin azərbaycançılıq ideyalarına sədaqətlə xidmət edən vətəndaş alim və görkəmli dövlət xadimidir.

Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində tələbəlik illərindən tanıdığım Ramiz Ənvər oğlu Mehdiyev ömrünün bütün çağlarında, tariximizin bütün mərhələlərində hər zaman haqqın və ədalətin keşiyində durmuş, doğma xalqımızın və Vətənimizin mənafeyini dönmədən müdafiə etmiş, həmişə mübarizənin ön cəbhəsində olmuşdur.

Dahi Heydər Əliyevin ən yaxın silahdaşlarından biri və azərbaycançılıq məfkurəsinin mübariz alim-əsgəri olan Ramiz Ənvər oğlu Mehdiyev, həmişə olduğu kimi, bu gün də ön cəbhədədir.

**Yaqub MAHMUDOV,**
*akademik*

"Demokratiya yolunda: irs haqqında düşünərkən" kitabı, heç şübhəsiz ki, ictimai elmlərə, bütünlükdə Azərbaycan elminə fundamental bir töhfədir...

Mən son illərdə Azərbaycan elminin, o cümlədən fəlsəfə elminin inkişafında bu sahədə, sözün əsl mənasında, cəsarətli addımlar atan akademik Ramiz Mehdiyevə bu çox dəyərli kitaba görə bir daha təşəkkürümü bildirirəm.

Mən əminəm ki, bu kitab, ilk növbədə, bütün dünyaya bəyan edəcəkdir ki, Azərbaycan həm keçmiş irsi təhlil edərək qoruyur, həm Heydər Əliyev irsinə sadiq qalaraq inkişaf edir, həm də bundan sonra da qloballaşan dünyanın inkişaf etmiş, demokratik ənənələrə sadiq olan bir dövlətinə çevriləcəkdir.

**Ziyad SƏMƏDZADƏ,**
*akademik*

Demokratiya haqqında fundamental söz o zaman deyilir və mükəmməl əsər o zaman yazılır ki, o mühitdə, o ölkədə demokratiya olsun. Akademik Ramiz Mehdiyevin "Demokratiya yolunda: irs haqqında düşünərkən" kitabının ən mühüm məziyyəti məhz demokratik bir düşüncənin məhsulu olmasıdır, burada demokratik bir dövlətçilik düşüncəsinin iştirak etməsidir. Bu kitab həm də onu göstərir ki, belə bir əsəri yarada bilən xalq, millət, dövlətçilik şüuru heç zaman hansısa "rəngli inqilablar"ın təsiri altına düşə bilməz. Yəni bu, sadəcə, bir müəllifin, tədqiqatçının əsəri deyil, eyni zamanda, bizim ümumi ictimai fikrimizin bir əsəri kimi də əhəmiyyətlidir.

"Demokratiya yolunda: irs haqqında düşünərkən" kitabı hər şeydən əvvəl, çox böyük bir analitikin, çox böyük bir akademik düşüncə sahibinin əsəridir. Bu kitab bir siyasət generalının,

təcrübəli siyasətçinin əsəridir. Əsərin üstünlüyü bir də ondadır ki, burada böyük bir təcrübə ümumiləşdirilmişdir.

**Nizami CƏFƏROV,**
*akademik*

Görkəmli alim, akademik Ramiz Mehdiyev XX əsrin sonu və XXI əsrin əvvəllərində Azərbaycan və dünya humanitariyasının, ictimai-siyasi, fəlsəfi fikrinin inkişafında taleyüklü problemlərin nəzəri-praktik həllini təqdim edən əsərlərin və original konsepsiyaların müəllifidir. Ramiz Mehdiyevin elmi yaradıcılığını və fəaliyyətini, olduqca zəngin bioqrafiyasını şərti olaraq bir neçə istiqamətdə səciyyələndirmək olar:

1) tədqiq etdiyi problemlər və mövzular; 2) problemlərin baş verdiyi zaman amili; 3) fəlsəfi-siyasi təhlil metodunun xüsusiyyətləri; 4) Azərbaycan və dünya ictimai elminə gətirdiyi yeni konsepsiyaların əhəmiyyəti; 5) bioqrafiyasında filosof-siyasətşünas, dövlət xadimi, elm təşkilatçısı kimi keyfiyyətləri birləşdirən şəxsiyyət-alim idealı.

Akademik Ramiz Mehdiyevin elmi marağını müasir dövrün ən mürəkkəb, ziddiyyətli problemləri təşkil edir. Buraya suveren dövlətçilik, inkişafın milli modeli və konsepsiyalarının təqdim edilməsi, ümummilli lider Heydər Əliyevin ideya-siyasi irsinin tədqiqi, müasir tranzitoloji paradiqmanın lokal, regional və qlobal müstəvilərdə doktrinal panoramının yaradılması, qloballaşma, modernləşmə, postmodern və postindustrial cəmiyyətin fəlsəfi - siyasi məsələləri, Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması, cəmiyyətdə sosial-siyasi arxetip və stereotiplərin dialektikası, demokratiyanın tranzitar məkanlarda təkamül dinamikası, litologiya, milli ideya, demokratik cəmiyyətdə siyasi müxalifətçiliyin statusu və s. aiddir. Görkəmli alim ən aktual məsələlərə həsr olunan silsilə monoqrafik tədqiqatlar təqdim etmişdir: "Beynəlxalq münasibətlər: nəzəriyyə və siyasətin problemləri", "XX əsrin sonunda millətlərarası münasibətlər", "Azərbaycanlıların soyqırımının gerçəklikləri", "Azərbaycanın inkişaf dialektikası", "Azərbaycan: müstəqilliyin tarixi irsi və fəlsəfəsi", "Azərbaycan:

qloballaşma dövrünün tələbləri", "2005-ci ilin parlament seçkiləri: ilkin təhlil", "Vətəndaş cəmiyyətinə yol açan ideyalar", "XXI əsrdə milli dövlətçilik", "Milli məfkurə, döv-lətçilik, müstəqillik yolu ilə" (iki cilddə), "Demokratiya yolunda: irs haqqında düşünərkən", "Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti".

Ramiz Mehdiyevin təhlil predmeti, seçdiyi problemlər zaman baxımından keçid mərhələləri və qeyri-müəyyən olan gələcək perspektivlərdir. Belə zaman kəsiyinin təhlilində müəllifin təfəkkürü və cəsarəti "gerçəklik" adlı fenomenin müqaviməti ilə üzüzə durur. Posttotalitar transformasiyada, postmodern mərhələdə dünya fəlsəfi-politoloji fikrinin tədqiqində bu gün də sonadək dərk edilməmişdir. Bununla belə, görkəmli alim Azərbaycanın milli dövlət identikliyi konsepsiyasının dünyanın aparıcı ictimai siyasi fikirləri ilə müqayisədə formalaşdırılmasına nail olmuşdur. Müəllif dövlətçiliyin inkişafında universal modellərin deyil, hər bir siyasi məkanın xüsusiyyətinə uyğun olaraq nadir variasiyalarının olduğunu əsaslandırmışdır. Müəllifin "Demokratiya yolunda: irs haqqında düşünərkən" əsəri demokratik tranzitin struktur və prosedur aspektlərinin fərqli cəhətlərinin, suveren milli demokratiya ilə Qərb tipli demokratik modellərin xüsusiyyətinin dərin təhlili verildiyi üçün dünyanın aparıcı politoloqları tərəfindən yüksək qiymətləndirilmişdir.

Müəllifin araşdırdığı problemlərin dairəsi və həll yollarının novatorluğu məntiqi olaraq onun özünəməxsus nəzəri metodunu, yanaşma tərzini formalaşdırmışdır. Bu metoda xas olan əsas cəhət nəzəri düşüncə və gerçəkliyin, paradiqma və reallığın üzvi vəhdətidir. Problemlərin ayrı-ayrı aspektlərinin fraqmentar şəkildə təhlili ən çox rast gəlinən haldır. Lakin onların gerçəklik və mahiyyətin vəhdətində tədqiqi çox az tədqiqatçıya müyəssər olur. Buna görədir ki, görkəmli alimin əsərləri siyasi inkişafın, milli, regional və qlobal transformasiyaların vəhdətdə, dərin təhlilini verən metakonsepsiya statusu kəsb edir.

Novator alim Ramiz Mehdiyevin Azərbaycan və dünya ictimai elminə gətirdiyi yeni konsepsiyalar böyük fəlsəfi düşüncənin,

narahat alim ömrünün, filosof və siyasətçi baxışlarının nadir sintezinin məhsuludur. Milli və dünya ictimai-siyasi fikrinin ən qabaqcıl ideya axınlarını üz-üzə qoymaq, problemlərə ənənəvi baxış məhdudiyyətindən çıxmaq, elmdə alternativsiz ideyalar kimi təqdim olunan mövqelərə qarşı Azərbaycan aliminin fərqli, obyektiv-elmi fikir söyləmək qətiyyətini əzmlə nümayiş etdirməkdir. Onun fəaliyyəti bütövlükdə bugünkü dünyada və Azərbaycanda filosofun, siyasətçinin elitada hansı statusa malik olduğunu, zamanın çağırışlarına necə cavab verməli olduğunu göstərən bir örnəkdir. Akademikin fikrinə görə, yeni mərhələdə milli intellektual elita dünyanın yeni ideyalar məkanının formalaşmasında ön cərgələrdə yer almalı, dövlətin modernləşmə strategiyasının siyasi, iqtisadi, mədəni, mənəvi və fəlsəfi aspektləri arasında dinamik tarazlığın müəyyən edilməsinə xüsusi diqqət verməlidir.

Müasir tarixin fəlsəfi-siyasi problemlərinin peşəkar tədqiqatçısı olan, ömrünün 30 ildən artıq dövrünü ümummilli lider Heydər Əliyevlə çiyin-çiyinə işləyən Ramiz Mehdiyevin əsərləri Azərbaycanın ən yeni tarixinin obyektiv, canlı salnaməsidir. Akademik həm baş verən hadisələrin bilavasitə iştirakçısı, həm də özündə ən azı fəlsəfə, tarix, politologiya və idarəetmə elmlərinin əsas təhlil metodlarını cəmləyən alimdir. Görkəmli alim yaradıcılığında onlarca problemin ilk dəfə təhlilinin əsasını qoy-muş və yeni yanaşma tərzini ənənəyə çevirə bilmişdir. Akademik Ramiz Mehdiyevin dövlət, siyasət və elm xadimi kimi çoxşaxəli yaradıcılığı özündə həm də müasir dövrdə çox vacib olan ictimai-siyasi elmin təşkilatçısı kimi fəaliyyəti də əks etdirir. O, Azərbaycanda fəlsəfi, sosial-siyasi tədqiqatları əlaqələndirməklə dövlətçilik məsələlərinin həllinə yönəltmək məqsədi ilə "Fəlsəfə və Sosial Siyasi Elmlər Assosiasiyası"nın, ilk "Fəlsəfə" jurnalının yaradıcısı və beynəlxalq Redaksiya Şurasının sədridir. Onun əsərləri rus, ingilis və türk dillərində çap olunaraq, Azərbaycanın hüdudlarından kənarda geniş yayılmışdır. Dövlət qarşısında və elm sahəsində xidmətlərinə görə iki dəfə "Qırmızı Əmək Bayrağı", "İstiqlal" ordenləri ilə təltif edilmişdir. Kembric Beynəlxalq

Biblioqrafiya İnstitutunun qərarı ilə XX əsrin iki min görkəmli aliminin sırasına daxil edilmişdir. Beynəlxalq sülh mükafatı laureatı, Amerika Fəlsəfə Cəmiyyətinin və Nyu-York Elmlər Akademiyasının üzvüdür.

Ümummilli lider Heydər Əliyevin alim şəxsiyyəti haqqında dediyi bu sözlərin mənası akademik Ramiz Mehdiyevin fəaliyyətində öz sərrast ifadəsini tapmışdır: "Hər bir alim qiymətlidir. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, fikirlərini tətbiq edib əməli nəticə götürə bilən, cəmiyyətə konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tuturlar".

**Elxan NURİYEV,**
*siyasi elmlər doktoru, professor*

Akademik Ramiz Mehdiyevin sosial-fəlsəfi tədqiqatlarının çox uğurlu bir elmi taledən xəbər verdiyi indi heç kəsdə şübhə doğurmur. Bu qədər geniş problemlər dairəsini əhatə etməklə belə fundamental tədqiqatlar ortaya qoymaq hər elm adamına müyəssər olmur. Doğrudur, hər yeni əsər elmə yeni bir paradiqma gətirə bilməz. Xüsusilə də ictimai elmdə idrakın belə "bayramları" çox gec-gec olur. Bununla belə, zaman-zaman yeni ideyalar, axtarışlar, tapıntılarla zəngin əsərlər yaranır və akademik Ramiz Mehdiyevin sosial-fəlsəfi tədqiqatları da buna yaxşı bir nümunədir.

Bütünlükdə, onun elmi yaradıcılığı iki mərhələyə:sovet dövrü və müstəqillik illəri mərhələlərinə bölünə bilər.

Birinci mərhələ onun M.V.Lomonosov adına Moskva Dövlət Universiteti fəlsəfə fakültəsinin əyani aspirantı olarkən həmin universitetin nəşrlərində dərc olunan məqalələri ilə başlayaraq "Вопросы философии", "Партийная жизнь" kimi mərkəzi jurnallarda və respublika nəşrlərində çıxan çoxsaylı məqalələri, kollektiv monoqrafiyalardakı ayrı-ayrı bölmələri əhatə edir. R.Mehdiyevin ozamankı elmi marağının əsas istiqamətini millətlərarası münasibətlər problemi təşkil edir. Belə bir maraq isə, şübhəsiz ki, təsadüfi deyildi. O zaman vətəndaşı olduğumuz ölkə dünyanın ən çoxmillətli ölkələrindən biri idi və nəinki bütünlükdə dövlətin, həm də ayrı-ayrı millətlərin, habelə hər bir şəxsin taleyi

bu məsələnin necə həll olunmasından çox asılı idi. Şəxsi müşahidələrimə əsaslanaraq deyə bilərəm ki, ictimai elmlər sahəsinə gələn ozamankı gəncliyin ən fəal və vətənpərvər əhval-ruhiyyəli nümayəndələri əksər hallarda bu istiqamətə üz tuturdu.

Özü də təkcə Azərbaycanda yox, milli respublikaların hamısında. Doğrudur, sonralar R.Mehdiyevin özünün də yazdığı kimi, "o dövrdə nəyisə dəyişmək tək-tək adamların işi deyildi, çünki söhbət nizamlanmış partiya-dövlət strukturlarından gedirdi". Lakin mənəvi həyatın dərin qatlarında maraqlı axınlar vardı. Stalinizmdən uzaqlaşmağa çalışan Mərkəz istəyirdi ki, Sovet Birliyinin möhkəmləndirilməsi işində, əvvəllər olduğu kimi, təkcə amansız repressiyalardan yox, daha çox ideologiyadan, elmdən, incəsənətdən istifadə etsin və buna "milli azlıqların" nümayəndələri də geniş cəlb olunsun. "Milli azlıq" nümayəndələri olan vətənpərvər, milli təəssübkeş gənclər isə buna milli mənafeləri müdafiə etmək üçün yaxşı bir imkan kimi baxırdı. Ramiz Mehdiyev də bu elmi gəncliyin ön sıralarında idi. Heç də təsadüfi deyil ki, hələ Azərbaycanın öz müstəqillik Aktını qəbul etmədiyi bir vaxtda, o zaman böyük tirajla çıxan müstəqil nəşrə – "Aypara" qəzetinə verdiyi müsahibədə (bu, onun vəzifədən kənarlaşdırılıb, qaynar siyasi proseslər yaşayan Azərbaycan cəmiyyətinin bir "akademik küncünə" sıxışdırılandan sonra verdiyi ilk müsahibə idi) müxbirin "Azərbaycanda hadisələrin inkişafı barədə nə düşünürsünüz?" sualına belə cavab vermişdi: "Azərbaycanın gələcəyi azadlıq və demokratiyadır. Bütün qüvvələr məhz bu istiqamətdə fəaliyyət göstərməlidir". Onun partiya-sovet orqanlarında çalışarkən nizamnamə və təlimatlardan "tərtib olunmuş" bir partiya funksioneri deyil, məhz azərbaycanlı ovqatı ilə, milli təəssübkeşlik hissi ilə yaşayan bir dövlət adamı olduğu Azərbaycan poeziyası və incəsənətinin parlaq nümayəndələri Üzeyir Hacıbəyli, Səməd Vurğun və Qara Qarayevin yubileylərinə həsr olunmuş respublika və ümumittifaq tədbirlərində doğma mədəniyyətimizə, tariximizə dərin məhəbbətlə yoğrulmuş çıxışlarından da aydın hiss olunurdu.

Birinci mərhələnin demək olar ki, bütün əsərlərində millətlə-

rin hüquq bərabərliyinin dəstəklənməsi, həm milli qapalılığa, həm də velikorus şovinizminə qarşı barışmazlıq öz ifadəsini tapır ki, bu da o dövrdə milli mənafelərə xidmət etməyin imkanlarından maksimum istifadə demək idi. Sovet dönəmində hazırlanmasına başlanan və müstəqilliyin ilk illərində yekunlaşdırılan "Millətlərarası münasibətlər: nəzəriyyə və siyasət problemləri"mövzusunda doktorluq dissertasiyası (1993) və onun əsas məzmununu əks etdirən irihəcmli monoqrafiyada (1992) isə Ramiz Mehdiyev öz tədqiqatının mövzu dairəsini əsaslı surətdə genişləndirir. Tədqiqat işində keçmiş Sovet İttifaqında, sonralar isə postsovet məkanında yaranmış gənc suveren dövlətlərdə həyata keçirilən milli siyasətin elmi-nəzəri əsaslarının və sosial səmərəliliyinin fəlsəfi-sosioloji təhlili verilir, keçmiş SSRİ hüdudlarında, o cümlədən Qafqaz regionunda baş verən fəlakətli proseslər sovet milli siyasətinin, proletar və sosialist beynəlmiləlçiliyi ideologiyasının dərin böhranının nəticəsi kimi qiymətləndirilir. Əsər tam əsasla totalitarizmdən demokratizmə keçidlə səciyyələnən bütöv bir mərhələnin mürəkkəb, ziddiyyətli sosial-etnik prosesləri idarə etməyin nəzəri əsaslarının hazırlanmasına ciddi bir töhfə hesab edilə bilər.

Ramiz Mehdiyevin elmi fəhmi, tədqiqatçı istedadı tam gücü ilə müstəqillik illərində üzə çıxır. Artıq adı çəkilən və onun yaradıcılığının birinci mərhələsinə yekun vuran həmin monoqrafiya və doktorluq dissertasiyası, əslində, ikinci mərhələnin başlanğıcı da hesab edilə bilər. Bu monoqrafiyadan bir qədər sonra nəşr olunan və geniş ictimai rezonans doğuran "Türkçülük tarixin gözü ilə, yaxud milli ideya əsrlərin qovuşuğunda", "Totalitarizm sindromu və demokratiyanın əldə edilməsi", üç dildə nəşr edilən "Azərbaycanlılara qarşı soyqırımı gerçəklikləri" və sair əsərlərinə birbaşa çıxışlar görünür.

Yeni mərhələdə Ramiz Mehdiyevin elmi marağının dairəsi əhəmiyyətli dərəcədə genişlənir. Artıq istər elmi araşdırmalar, istərsə də dövlət idarəçiliyi sahəsində zəngin təcrübə qazanmış görkəmli alim və dövlət xadimi kimi onun elmi axtarışlarının predmetini bütövlükdə Azərbaycan cəmiyyətinin dünyanın inkişaf etmiş ölkələrində öz üstünlüyünü nümayiş etdirmiş qabaqcıl

ictimai quruluşa transformasiyası proseslərinin inteqral elmi mənzərəsini vermək, iqtisadi, siyasi, inzibati islahatların həyata keçirilməsinin elmi-nəzəri əsaslarını işləyib hazırlamaq təşkil edir. Bu isə hər şeydən əvvəl milli kimlik, milli ideya, yeni dövlət identikliyi, dövlət ideologiyası, dini və dünyəvi meyllərin, ənənələr və dəyişikliklərin nisbəti, modernləşmə mexanizmləri və yolları, qloballaşma şəraitində milli-mənəvi simanın qorunub saxlanması, şəxsiyyət, dövlət, vətəndaş cəmiyyəti münasibətləri, köklü islahatların həyata keçirilməsini təmin edə biləcək kadr hazırlığı və s. kimi bizim üçün yeni olan çoxsaylı və olduqca mürəkkəb problemlər kompleksinin həllini tələb edir. Doğrudur, həmin məsələlərlə dünya elmi çoxdan məşğuldur. Lakin onların nəticələrini biz "istehlak üçün hazır olan məhsul" kimi "idxal" edə bilmərik. Çünki heç bir hazır nəzəri konstruksiya, heç bir model ayrı-ayrı xalqlara məxsus mənəvi, əxlaqi, bədii-estetik dəyərlərin özünəməxsusluğunu əks etdirmir. Müasir dünya ölkələrinin böyük əksəriyyətinin siyasi, iqtisadi, sosial həyatında liberal-demokratik dizaynın əlamətləri nə qədər çox olsa da, hər bir cəmiyyət özünəməxsus bir sistem olaraq qalır. Digər tərəfdən, Azərbaycanın keçdiyi yol Qərbin keçdiyi yoldan fərqlidir, Qərbin keçmədiyi yoldur. Bu yolun əsas meyillərini, ziddiyyətlərini, mürəkkəb keçidlərini biz özümüz araşdırmalı, onun elmi izahını özümüz verməliyik.

Akademik Ramiz Mehdiyevin son bir neçə il ərzində nəşr olunan "Azərbaycanın inkişaf dialektikası", "XXI əsrdə milli dövlətçilik", "Azərbaycan: qloballaşma dövrünün tələbləri", "Vətəndaş cəmiyyətinə yol açan ideyalar", "Demokratiya yolunda: irs haqqında düşünərkən", "Modernləşmə xətti yenə də gündəlikdədir", "Azərbaycan – 2003–2008: zaman haqqında düşünərkən" monoqrafiyaları, ayrı-ayrı məqalələri və çıxışları məhz bu məqsədləri izləyir. Onlar tam əsasla müasir Azərbaycan elmi, Azərbaycan dövlətçiliyi, Azərbaycan cəmiyyəti üçün çox aktual olan mürəkkəb məsələlər kompleksinin həllinə qiymətli töhfə hesab oluna bilər. Əgər biz "həmin əsərlərdə Azərbaycanın inkişaf fəlsəfəsinin əsasları işlənib hazırlanır, müasir Azərbaycan siyasi

fəlsəfə məktəbinin əsası qoyulur" desək, heç də səhv etmərik.

Ramiz Mehdiyevin yaradıcılığı onu cəmiyyətimizə təkcə görkəmli alim, dövlət xadimi kimi deyil, həmçinin gəncliyin tərbiyəçisi, müəllimi, bir maarifçi kimi də təqdim edir. Onun ali məktəblər üçün dərs vəsaiti kimi yazılmış "Fəlsəfə" əsəri bu cəhətdən xüsusi diqqətəlayiqdir. Buradakı məsələlərin qoyuluşu və həlli müəllifin öz gənc oxucusunu ictimai fikirdə dərin kök salmış köhnə fəlsəfi ehkamların, sovet ideoloji stereotiplərinin təsirindən uzaqlaşdırmaq, fərqli metodoloji sistemlər, rəngarəng baxışlar və ideyalar palitrası barədə mümkün qədər dolğun məlumat vermək, müstəqil və dərindən düşünmək tələbatı aşılamaq səyini aşkar nümayiş etdirir. Diqqətəlayiq cəhətlərdən biri də budur ki, müəllif düşüncələrini məhz öz auditoriyasına - qabaqcıl dünyaya uğurla inteqrasiya olunan müasir Azərbaycanın gəncliyinə ünvanlaya bilmişdir. Əsərdə dünya fəlsəfi fikrinin zənginliyi içərisində Azərbaycan fəlsəfi fikrinin nailiyyətləri və ənənələri də geniş təqdim edilir.

Təbii olaraq bu son dərəcə bəhrəli elmi yaradıcılığın nədən qaynaqlandığı sualı meydana çıxır. Zənnimcə, bu, hər şeydən əvvəl onun həyata çox fəal münasibətilə bağlıdır. O, heç vaxt cəmiyyətdə baş verənlərə etinasız qalmamış, passiv müşahidəçi olmamışdır. Onun müsahibələrinin birində səslənən "Güman edirəm ki, cəmiyyətdə baş verənlərdən heç kəsin kənarda qalmaq hüququ yoxdur" sözləri bunu aydın göstərir.

İkincisi, o, elmə olduqca ciddi münasibət bəsləyir. Onun əsərlərində siyasi fəlsəfənin ən müxtəlif istqamətləri, dünya siyasi elmi və praktikasına bəlli olan ən rəngarəng cərəyanlar, məktəblər, konsepsiyalar, ideyalar müəllif mövqeyinin prizmasından keçir, Azərbaycanda cərəyan edən proseslər ölkədə, habelə buna bənzər yol keçən Mərkəzi və Şərqi Avropanın postkommunist məkanında, xüsusilə də MDB ölkələrində əldə olunan təcrübə barədə zəngin empirik materiallardan geniş istifadə etməklə təhlil olunur.

Üçüncüsü, Ramiz Mehdiyevin fəlsəfi yaradıcılığının daha bir mühüm qaynağını onun ciddi akademik fəaliyyəti yüksək dövlət qulluğundakı gərgin praktik işlə uğurla əlaqələndirməsi təşkil

edir. Bu, onun elmi araşdırmalarına həyatla sıx bağlılıq, çeviklik, praqmatizm, siyasi və inzibati idarəçilik sahəsindəki elmi yanaşma, obyektivlik, müdriklik gətirir.

Heç şübhəsiz ki, uğurlu elmi fəaliyyətlə və dövlət idarəçiliyi sahəsindəki praktik işin belə nadir sintezinin meydana gəlməsində akademik Ramiz Mehdiyevin elmi taleyinin şəxsi taleyi bütövlükdə xalqının tale yolu ilə çulğaşan böyük tarixi şəxsiyyət, ümummilli lider Heydər Əliyevin, habelə onun siyasi varisi Prezident İlham Əliyevin uğurlu dövlət idarəçiliyi praktikası ilə sıx bağlı olması da mühüm rol oynamışdır. Bu zəngin dövlət idarəçiliyi yolu və təcrübəsinin hərtərəfli tədqiqi ona Azərbaycan siyasi elmində müstəqil bir istiqamətin - Əliyevşünaslığın əsasını qoymağa imkan vermişdir.

Böyük sosial transformasiyaların cərəyan etdiyi müasir şəraitdə istər siyasi praktika, istərsə də onun fəlsəfəsi çox ciddi dəyişikliklərə məruz qalır və bu dəyişikliklər axınının ciddi sarsıntılar və xaos mənbəyinə çevrilməməsi üçün həm siyasətçidən, həm də filosofdan maksimum gərgin rejimdə çalışmaq tələb olunur. Akademik Ramiz Mehdiyev daim bu qeyri-adi rejimdə çalışan, zamanın çağırışlarına dərhal cavab verməyə can atan nadir insanlardandır.

**Əlikram ABDULLAYEV,**
*fəlsəfə elmləri doktoru, professor*

